# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...
Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 21 (1503) ❖ Cümə, 19 iyun 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# "Süni intellekt dövründə insan hüquqları: imkanlar, risklər və məsuliyyətlər" mövzusunda keçirilən Ombudsmanların Beynəlxalq Bakı Sammitinin iştirakçılarına

Hörmətli Sammit iştirakçıları,

Sizi "Süni intellekt dövründə insan hüquqları: imkanlar, risklər və məsuliyyətlər" mövzusunda keçirilən Ombudsmanların Beynəlxalq Bakı Sammitinin açılışı münasibətilə salamlayıram.

İnsan hüquqları sahəsində yeni qlobal çağırışlara həsr olunmuş bu Sammitin 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günündə keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu tarix Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin ölkəmizdə ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı təsdiq etdiyi və insan hüquqlarının təmin olunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirdiyi gündür.

Müasir dövrdə süni intellekt texnologiyalarının sürətlə inkişafı bəşəriyyətin sosial, iqtisadi, hüquqi və etik gündəliyini əsaslı şəkildə dəyişməkdədir. Bu proses yeni imkanlarla yanaşı, bütün sahələrdə, o cümlədən insan hüquqları sahəsində də yeni prioritetləri aktuallaşdırır.

Ölkəmiz texnoloji tərəqqinin insan amilinə xidmət etməsini dövlət siyasətinin əsas prinsiplərindən biri kimi qəbul edir. Belə ki, Azərbaycanda innovativ texnologiyaların və süni intellektin məsuliyyətli və balanslaşdırılmış tətbiqi istiqamətində mühüm addımlar atılır. Qeyd olunan sahədə qəbul etdiyimiz hüquqi aktlar, konsepsiya və fəaliyyət planları bu texnologiyaların təhlükəsiz, şəffaf və insan hüquqlarına əsaslanan prinsiplər çərçivəsində tətbiqini təşviq edir, inklüziv inkişafın dəstəklənməsinə və rəqəmsal transformasiyanın sürətləndirilməsinə xidmət edir.

Azərbaycanın yeni rəqəmsal arxitekturası üzrə həyata keçirilən təşəbbüslər, dövlət idarəçiliyində süni intellektin tətbiqinin genişləndirilməsi, informasiya təhlükəsizliyi və milli süni intellekt infrastrukturunun inkişaf etdirilməsi ölkəmizin müasir çağırışlara strateji yanaşmasını nümayiş etdirir.

Xüsusi qeyd olunmalıdır ki, bu yaxınlarda Bakı şəhərində keçirilmiş BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası dayanıqlı inkişaf, rəqəmsal idarəetmə, insanyönümlü şəhər mühitinin formalaşdırılması istiqamətində beynəlxalq əməkdaşlığa və qlobal dialoqa ölkəmizin verdiyi töhfənin mühüm göstəricisi oldu.

Bu kontekstdə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları süni intellekt texnologiyalarının, innovativ həllərin və ekoloji dayanıqlılıq prinsiplərinin insan rifahına, təhlükəsiz yaşayış mühitinin formalaşdırılmasına və sosial-iqtisadi reinteqrasiyanın təmin edilməsinə yönəlmiş uğurlu inkişaf modelidir.

Bu inkişaf tendensiyaları insan hüquqlarının müdafiəsi sahəsində institusional mexanizmlərin və beynəlxalq əməkdaşlığın əhəmiyyətini də artırır. Bu baxımdan milli insan hüquqları institutları, o cümlədən ombudsman təsisatı yeni texnoloji çağırışlar dövründə insan hüquq və azadlıqlarının müdafiəsində və hüquq mədəniyyətinin təbliğində mühüm rol oynayır.

Əminəm ki, Ombudsmanların Beynəlxalq Bakı Sammiti bu sahədə beynəlxalq əməkdaşlığın və qabaqcıl təcrübə mübadiləsinin genişləndirilməsinə, insanyönümlü və hüquqa əsaslanan innovativ idarəetmə mexanizmlərinin təşviqinə mühüm töhfə verəcəkdir.

Bir daha sizi salamlayır, Sammitin işinə uğurlar arzu edirəm.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 iyun 2026-cı il*



## 15 iyun müasir Azərbaycanın dövlətçilik tarixinin ən şanlı və həlledici səhifəsidir

**"15 İyun - Milli Qurtuluş Günü müstəqil Azərbaycan dövlətinin və bütövlükdə xalqımızın məhv olmaq təhlükəsindən xilas edildiyi, suverenliyimizin xilas nöqtəsi olan müqəddəs bir gündür.**

Bu fikirləri AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açıqlamasında bildirib.

Akademik qeyd edib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində respublikamız sözün əsl mənasında uçurumun kənarında idi. Daxili siyasi böhran, ölkəni bürüyən xaos, dərin iqtisadi tənəzzül və ən acınacaqlısı, Ermənistanın Qarabağda başlatdığı işğalçılıq müharibəsi müstəqilliyimizi itirmək qorxusu yaratmışdı. Belə bir çıxılmaz vəziyyətdə Azərbaycan xalqı öz xilaskarlıq missiyasını yalnız böyük dövlət xadimi Heydər Əliyevdə gördü. Çünki Ulu Öndər hələ sovet dönəmində respublikamızı ittifaqın ən qabaqcıl ölkələrindən birinə çevirmiş, Moskvada rəhbərlikdə olduğu illərdə hər zaman vətəninin, mənsub olduğu xalqın maraqlarını düşünmüşdü. Onun 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi erməni təcavüzü qarşısında göstərdiyi sarsılmaz qətiyyət isə xalqın bu inamını daha da möhkəmləndirmişdi.

Məhz xalqın təkidli tələbi, ziyalılarımızın, elm adamlarımızın müraciətləri və ölkə rəhbərliyinin yeganə çıxış yolunu dahi liderin xilaskarlıq dühasında görməsi Ulu Öndəri Bakıya gətirdi. Onun xalqına və vətəninə olan sonsuz sevgisi fəlakətlərin qarşısını aldı, ölkəni qardaş qırğınından və vətəndaş müharibəsindən qorudu. 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ilə ölkəmizin gələcək inkişafının, iqtisadi dirçəlişinin və dövlət institutlarının qurulmasının möhkəm təməli qoyuldu."

"Ümummilli Lider hakimiyyətə qayıtdıqdan dərhal sonra ilk strateji görüşlərindən birini məhz 1993-cü il sentyabrın 21-də Elmlər Akademiyasında respublikanın aparıcı alimləri və ziyalıları ilə keçirdi. Bu addım dahi liderin elmə və intellektual potensiala verdiyi müstəsna əhəmiyyətin göstəricisi idi. Həmin tarixi görüşdə etdiyi proqram xarakterli çıxışında Ulu Öndər hər bir vətəndaşı, xüsusən də ziyalıları narahat edən problemlərə toxunaraq, öz ömür yolunu millətinə fəda etdiyini bu sözlərlə bəyan etmişdi:

"Mən nə vəzifə tutmaq üçün, nə də Azərbaycanın dövlət başçısı olmaq üçün mübarizə aparmamışam... Yalnız bir şeyi vəd edə bilərəm: Azərbaycan xalqına, millətimə, torpağıma sadiq olmuşam və ömrüm boyu da sadiq olacağam. Həyatımın son dəqiqəsinədək xalqıma xidmət edəcəyəm və ömrümün bundan sonrakı illərini də xalqıma bəxş edirəm".

Bəli, məhz bu uzaqgörən siyasətin nəticəsi olaraq ölkədə qanunsuzluğa son qoyuldu, cəbhədə atəşkəs əldə edildi, "Əsrin müqaviləsi" sayəsində ölkəyə irihəcmli xarici investisiyalar cəlb olundu. Ordu quruculuğundan tutmuş elm, təhsil və mədəniyyət sahələrinə qədər həyata keçirilən köklü islahatlar Azərbaycanı beynəlxalq arenada nüfuzlu və etibarlı tərəfdaşa çevirdi."

AMEA prezidenti Ulu Öndərin müəyyənləşdirdiyi strateji kursun onun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən müasir dünyanın çağırışlarına uyğun olaraq ən yüksək səviyyədə davam etdirildiyini qeyd edib.

"Müzəffər Ali Baş Komandanımızın qətiyyətli liderliyi, həmçinin Ulu Öndərin azərbaycançılıq məfkurəsi ruhunda böyüyən vətənpərvər, cəsur gəncliyimizin canı və qanı bahasına qazanılmış tarixi Qarabağ Zəfəri dövlətçilik tariximizin ən parlaq zirvəsidir. Bu möhtəşəm qələbə ilə Prezident İlham Əliyev öz adını tariximizə əbədi olaraq qızıl hərflərlə yazdırdı. Müasir Azərbaycanın əldə etdiyi bütün bu qlobal uğurların başlanğıcı və ideoloji təməli məhz 15 İyun Milli Qurtuluş Gününə dayanır", - deyə akademik İsa Həbibbəyli əlavə edib.

**konsensus.az**

# Elmi fəaliyyətin qiymətləndirilməsində yeni mexanizmlərin tətbiqi müzakirə olunub

## *AMEA Rəyasət Heyətinin növbəti iclasında*









**Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

İclası giriş sözü ilə açan **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** gündəlikdə yer alan elmi və elmi-təşkilati məsələlər barədə ətraflı məlumat verib.

Tədbirdə müzakirəyə çıxarılan ilk mövzu AMEA-nın elmi müəssisə və təşkilatlarının, regional elmi bölmə və mərkəzlərinin 2026-cı ilin birinci yarısı üzrə elmi və elmi-təşkilati fəaliyyətinə dair yarımillik hesabatlarının icra vəziyyəti haqqında olub.

Akademik İsa Həbibbəyli artıq bir neçə ildir ki, AMEA-nın elmi müəssisə və təşkilatlarında yarımillik hesabatların keçirildiyini qeyd edərək, bu prosesin Akademiyanın elmi potensialının səfərbər olunmasına, fəaliyyətin səmərəliliyinin yüksəldilməsinə və qarşıda duran vəzifələrin daha aydın müəyyənləşdirilməsinə xidmət etdiyini diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli Rəyasət Heyəti nümayəndələrinin hesabatlarda ekspert qismində iştirakının elmi müəssisələr arasında məsuliyyət və koordinasiyanın daha da gücləndirilməsi istiqamətində mühüm addım olduğunu bildirib. Qeyd edib ki, əldə olunan nəticələr həm müstəqil ekspertlərin rəyi, həm də institutların geniş təqdimatı sayəsində daha obyektiv və şəffaf müstəvidə dəyərləndirilir.

Sonda AMEA rəhbəri cari ilin iyul ayında keçiriləcək Rəyasət Heyətinin iclasında yarımillik hesabatların geniş tərkibli müzakirəsinin təşkil olunmasını tövsiyə edib.

Məsələ ilə bağlı çıxış edən **Rəyasət Heyətinin Elm və təhsil şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Sərxan Xavəri** AMEA-nın Rəyasət Heyətinin 1 iyun 2026-cı il tarixli qərarına uyğun olaraq Akademiyanın elmi müəssisə və təşkilatlarında, regional elmi bölmə və mərkəzlərində 2026-cı ilin birinci yarısı üzrə elmi və elmi-təşkilati fəaliyyətə dair hesabatların müəyyən edilmiş qrafik əsasında 10 iyundan başlayaraq, 3 iyul tarixinədək keçirilməsinin nəzərdə tutulduğunu bildirib.

Qeyd edib ki, son illərdə Akademiyada həyata keçirilən islahatların əsas istiqamətlərindən biri elmi fəaliyyətin nəticəyönümlülüyünün artırılması, hesabatlılıq və şəffaflıq mexanizmlərinin gücləndirilməsi, elmi idarəetmədə müasir yanaşmaların tətbiqidir. Bu baxımdan yarımillik hesabatlar yalnız inzibati xarakter daşıyan tədbirlər deyil, həm də elmi müəssisələrin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi və inkişaf perspektivlərinin müzakirəsi üçün zəruridir.

Sərxan Xavəri əlavə edib ki, AMEA Rəyasət Heyəti Aparatının və elmi bölmələrin məsul əməkdaşlarının hesabat iclaslarında iştirakı hesabatların daha obyektiv qiymətləndirilməsinə, elmi müəssisələrlə Rəyasət Heyəti arasında əlaqələrin möhkəmləndirilməsinə, həmçinin problemlərin və inkişaf imkanlarının birbaşa öyrənilməsinə şərait yaradır.

Şöbə müdiri qeyd edib ki, cari hesabat dövrünün digər mühüm yeniliyi isə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda pilot layihə kimi hesabatların bal sistemi əsasında aparılmasının nəzərdə tutulmasıdır. Bu mexanizmin tətbiqində məqsədin elmi fəaliyyətin qiymətləndirilməsində obyektivliyin artırılması, əldə olunan nəticələrin ölçülə bilən göstəricilər əsasında təhlili olduğunu qeyd edərək, pilot layihənin nəticələrinin gələcəkdə Akademiyanın digər elmi müəssisələrində də qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi üçün faydalı təcrübə rolunu oynaya biləcəyini vurğulayıb.

Gündəlikdə növbəti məsələ AMEA-nın elmi tədqiqat institutlarında elmi fəaliyyətin nominasiyalar üzrə bal sistemi ilə qiymətləndirilməsi haqqında olub.

Akademik İsa Həbibbəyli AMEA-nın elmi-tədqiqat müəssisələrində elmi fəaliyyətinin müvafiq nominasiyalar üzrə bal sistemi vasitəsilə qiymətləndirilməsini nəzərdə tutan yeni layihə barədə ətraflı məlumat verib. AMEA rəhbəri hələ ki hazırlıq mərhələsində olan bu yeni modelin akademiyada sağlam rəqabət mühiti yaradacağını, elmi fəaliyyətin keyfiyyətini yüksəldəcəyini və hər bir alimin əməyinə fərdi, obyektiv qiymət verilməsinə zəmin yaradacağını vurğulayıb.

Məsələ ilə bağlı çıxış edən **Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər, rəqəmsal inkişaf və süni intellekt üzrə direktor müavini Mehman Həsənli** elmi fəaliyyətin bal sistemi ilə ölçülməsinin əsas istiqamətləri barədə ətraflı məlumat verərək bildirib ki, qiymətləndirmə sistemi bir sıra meyarlar əsasında qruplaşdırılıb.

Məsələ ətrafında AMEA-nın vitse-prezidentləri - **akademik İbrahim Quliyev, akademik Dilqəm Tağıyev, akademik Rasim Əliquliyev, akademik Gövhər Baxşəliyeva, həmçinin akademik-katib, akademik Arif Həşimov, AMEA-nın müxbir üzvü Ərtekin Salamzadə, tarix elmləri doktoru Eynulla Mədətli, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nəzmin Cəfərova** və başqaları çıxış edərək yeni modelin təkmilləşdirilməsini nəzərdə tutan təkliflər veriblər.

İclasda Naxçıvan Muxtar Respublikasında tapılmış "İlandağ kitabəsi"nin Urartu mixi yazıları kontekstində araşdırılması haqqında da məsələyə baxılıb.

Akademik İsa Həbibbəyli Naxçıvanda, İlandağda mühüm elmi əhəmiyyətə malik olan mixi yazının yenidən tədqiqata cəlb edilməsinin vacibliyini bildirib və müvafiq tapşırıqlar verib.

Sonra Akademik İsa Həbibbəyli Albaniya Elmlər Akademiyasının prezidenti, akademik Skender Gjinushinin rəhbərlik etdiyi nümayəndə heyətinin AMEA-ya reallaşan rəsmi səfəri ilə bağlı məsələyə toxunub. Səfər çərçivəsində iki ölkənin elmi qurumları arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin, müştərək tədqiqatların və layihələrin həyata keçirilməsinin perspektiv imkanlarını qiymətləndirdiyini diqqətə çatdırıb.

İclasda AMEA-nın vitse-prezidenti, akademik Rasim Əliquliyev Finlandiya Respublikasının Helsinki şəhərində keçirilmiş TNC-2026 beynəlxalq sammitində iştirakının yekunları haqqında çıxış edib. Bildirib ki, Sammit çərçivəsində 70-dən artıq ölkənin nümayəndələrinin iştirak etdiyi genişmiqyaslı tədbirlərdə müasir elmdə gedən qlobal proseslərdə süni intellektin rolu, gətirdiyi innovativ imkanlar və rəqəmsal transformasiya meyilləri ətraflı şəkildə müzakirə olunub.

Sözügedən beynəlxalq tədbirdə geniş məruzə ilə çıxış etdiyini bildirən akademik Rasim Əliquliyev "GEANT və Şərq Tərəfdaşlığı təşəbbüsü" çərçivəsində Azərbaycanın qlobal elmi mühitə inteqrasiyası, milli elmi-tədqiqat platformalarının inkişafı və müasir rəqəmsal infrastrukturun qurulması istiqamətində ölkəmizdə görülən mühüm işləri və əldə olunan nailiyyətləri tədbir iştirakçılarının diqqətinə çatdırıb.

İclasın yekununda gündəlikdə nəzərdə tutulan digər məsələlərə dair AMEA Rəyasət Heyəti tərəfindən müvafiq qərar qəbul edilib.

# AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Türkmənistanın Elm Günü tədbirlərində




**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Aşqabad şəhərində Türkmənistanın Elm Gününə həsr edilmiş "Qüdrətli dövlətin yeni epoxasının dirçəlişi dövründə elm, texnologiya və innovativ texnologiyalar" mövzusunda beynəlxalq elmi konfransda iştirak edib.**

Türkmənistan Elmlər Akademiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə Türkmənistanın elm və dövlət nümayəndələri ilə yanaşı, Türkiyə, Çin, Rusiya, İtaliya, Çexiya, Bolqarıstan, Yaponiya, Cənubi Koreya, Özbəkistan, Qazaxıstan, Tacikistan Belarus və digər ölkələrin elmi qurumlarının rəhbərləri və nümayəndə heyətləri iştirak və çıxış ediblər.

Konfransın rəsmi açılış mərasimində Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun tədbir iştirakçılarına təbrik məktubu oxunub.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli tədbirin plenar iclasında "Birinci Türkoloji Qurultay kontekstində Azərbaycan və Türkmənistan elmi əlaqələri" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə 1926-cı ildə Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilmiş və ortaq tarixi köklərə malik olan türk xalqlarının dili, ədəbiyyatı, mədəniyyəti və ictimai fikrinin kompleks tədqiqinə həsr edilmiş Birinci Türkoloji Qurultayda qardaş Türkmənistandan olan nümayəndələrin fəal iştirakı və ortaq latın əlifbasına keçidə göstərdikləri dəstək diqqətə çatdırılıb. Həmçinin, vurğulanıb ki, Azərbaycan və Türkmənistan Prezidentlərinin qarşılıqlı səfərləri, keçirilən rəsmi görüşlər və imzalanmış sənədlər əlaqələrimizin əhatə dairəsinin müasir dövrdə daim genişlənməkdə olduğunu nümayiş etdirir. Bu istiqamətdə həyata keçirilən elmi tədbirlərin, xüsusilə türkmən ədəbiyyatının görkəmli nümayəndəsi Məhtimqulu Fəraqinin ədəbi irsi sahəsində Azərbaycanda aparılan tədqiqatların, çap olunan kitabların, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Məhtimqulu Fəraqi Mərkəzinin Azərbaycan-Türkmənistan elmi əlaqələrinin inkişafı istiqamətində əhəmiyyəti haqqında söz açılıb. Eyni zamanda, Türkmənistanın elm adamları tərəfindən böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyatı və yaradıcılığının tədqiqi, əsərlərinin türkmən dilinə tərcüməsi və nəşrinin iki ölkə əlaqələrinin inkişafına böyük töhfələr verdiyi qeyd edilib.

Tədbir humanitar elmlər, təbiət elmləri, informasiya və kompüter texnologiyaları, nanotexnologiyalar, innovativ iqtisadiyyat, kənd təsərrüfatı, ekologiya, tibb və digər elmi istiqamətlərə həsr edilmiş sessiyalar üzrə davam etdirilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli səfər çərçivəsində Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyində olub və Ümummilli Lider Heydər Əliyevin büstünü ziyarət edib. AMEA rəhbəri tərəfindən həmçinin Türkmənistanın Milli Kitabxanasında yeni yaradılmış Azərbaycan guşəsinə Azərbaycan Milli Elmlər Akademiyasında çap olunmuş kitablar hədiyyə edilib.

# Yusif Məmmədəliyev: Elm. İrs. İnnovasiyalar



**Milli Azərbaycan Tarixi Muzeyində "Yusif Məmmədəliyev: Elm. İrs. İnnovasiyalar" konfransının iştirakçılarına və təşkilatçılarına diplomların təqdimetmə mərasimi keçirilib. Əvvəlcə 2025-ci ilin dekabrında Bakıda keçirilmiş "Yusif Məmmədəliyev: Elm. İrs. İnnovasiyalar" beynəlxalq konfransına həsr edilmiş videoçarx nümayiş olunub.**

Daha sonra çıxış edən Akademik Yusif Məmmədəliyev Fondunun icraçı direktoru Ramil Abbəkirov beynəlxalq konfransın əsas nəticələrindən, dünya şöhrətli Azərbaycan aliminin elmi irsinin öyrənilməsi və populyarlaşdırılması istiqamətində yeni layihələrdən danışıb.

Mərasimdə çıxış edən AMEA prezidenti, akademik İsa Həbibbəyli, Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Akademik Yusif Məmmədəliyev Fondunun prezidenti Sevda Məmmədəliyeva Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinin keçirilməsi haqqında sərəncamının əhəmiyyətini vurğulayıb, yubiley çərçivəsində təşkil olunan tədbirlərin alimin elmi irsinin tədqiqi və müasir perspektivlər fonunda yenidən qiymətləndirilməsi üçün yeni imkanlar açıldığını bildiriblər.

Muzeyin elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Fərhad Cabbarov 2025-ci ildə Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında nəşr olunan "Yusif Məmmədəliyev irsi" kataloqu haqqında mərasim iştirakçılarına məlumat verib.

Mərasimin sonunda akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinin təşkilində və keçirilməsində əməyi olmuş şəxslərə diplomlar təqdim edilib.

Təltif olunanlar arasında AMEA əməkdaşları da var.

# Xəzər hövzəsi: ekocoğrafi problemlər və davamlı inkişaf

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutu PHŞ tərəfindən görkəmli torpaqşünas alim, AMEA-nın müxbir üzvü, professor Amin İsmayılovun anadan olmasının 75 illik yubileyinə həsr olunmuş "Xəzər hövzəsi: ekocoğrafi problemlər və davamlı inkişaf" beynəlxalq elmi konfrans keçirilib.**




Konfransın açılış mərasimində Coğrafiya İnstitutunun direktor vəzifəsini icra edən, c.e.d., dosent Zaur İmrani iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətindən danışıb. Daha sonra AMEA-nın vitse prezidenti, akademik İradə Hüseynova, BDU-nun professoru Şövqi Göyçaylı, ADPU-nun Quba filialının direktoru, professor Yusif Əliyev, Coğrafiya İnstitutundan coğrafiya elmləri doktoru Mirnuh İsmayılov və Səid Səfərov, Gəncə Dövlət Universitetinin dosenti Tünzalə İsgəndərova, eləcə də yubilyar alim, AMEA-nın müxbir üzvü, professor Amin İsmayılov çıxış edərək konfransın elmi əhəmiyyətini vurğulayıblar.

Konfransa ümumilikdə 123 məqalə təqdim olunub. Elmi ekspertiza mərhələsindən sonra onların 87-si qəbul edilərək proqrama daxil edilib. Tədbirdə Azərbaycanla yanaşı, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan və Çin alimlərinin məruzələri də təqdim olunub.

İki gün davam edən konfransda Xəzər hövzəsinin ekocoğrafi problemləri, iqlim dəyişiklikləri, biomüxtəliflik, torpaq və su resursları, ekoloji təhlükəsizlik və davamlı inkişaf məsələləri üzrə elmi müzakirələr aparılıb.

# Akademik: Ölkəmizdə yeni rəqəmsal peşə istiqamətlərinin formalaşdırılması müasir dövrün tələbidir



**Son zamanlar sürətlə inkişaf edən süni intellekt texnologiyaları proqram mühəndisliyi, rəqəmsal dövlət, kompüter mühəndisliyi, data analitikası, data mühəndisliyi, kibertəhlükəsizlik, informasiya hüququ, rəqəmsal kriminalistika və s. kimi ixtisaslar üzrə peşəkar kadrlara tələbatı daha da artırıb. Artıq ölkəmizdə rəqəmsal arxitektorlar, rəqəmsal menecerlər, sistem mühəndisləri, rəqəmsal hüquqşünaslar kimi yeni peşə istiqamətlərinin formalaşdırılması müasir dövrün tələbidir. Bununla yanaşı, kadr hazırlığı sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində də real addımlar atılır, ali təhsilin məzmunu yenilənir, tədris materialları və dərsliklər müasir tələblərə uyğun şəkildə təkmilləşdirilir.**

Bu fikirləri açıqlamasında AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev deyib.

Akademik qeyd edib ki, dövlət başçısı tərəfindən 2022-ci ildə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Həmin proqram üzrə ixtisaslar əsas etibarilə rəqəmsal texnologiyalar, süni intellekt və digər əlaqəli ixtisasları əhatə edir. Azərbaycanlı gənclərin dünyanın aparıcı universitetlərində təhsil alması və sonra ölkəmizə qayıdaraq fəaliyyət göstərməsi bu sahədə kadr potensialının inkişaf etdirilməsinə verilən önəmin, diqqətin göstəricisidir.

O əlavə edib ki, rəqəmsal dövlət quruculuğu prosesində cəmiyyətin və dövlətin bütün sferaları üzrə kadr hazırlığı yalnız ali təhsil sistemi ilə məhdudlaşmamalıdır. Akademik vurğulayıb ki, müxtəlif təşəbbüslər və layihələr çərçivəsində biznes və vətəndaş cəmiyyəti sektorlarında da fasiləsiz təhsil, müasir bilik və bacarıqların tədrisi, kadrların yenidən hazırlanması istiqamətində sistemli və davamlı tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac var.

# Ümummilli Lider tərəfindən əsası qoyulan inkişaf strategiyası bu gün uğurla davam etdirilir



**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan tədbir keçirilib.**

Tədbirin əvvəlində Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva ölkəmizin 90-cı illərin əvvəllərində düşdüyü siyasi və iqtisadi böhran vəziyyətindən danışaraq, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə respublikanın ən çətin vaxtında hakimiyyətə qayıdışı nəticəsində ölkədə hərc-mərcliyə, xaosa son qoyulduğunu qeyd edib.

Akademik G.Baxşəliyeva Ümummilli Liderin qısa müddətdə ictimai asayişin bərpasına nail olaraq, insanlarda gələcəyə böyük inam yaratdığını, ölkəmizin yüksək iqtisadi inkişafının əsasını qoyduğunu vurğulayıb. Akademik G.Baxşəliyeva Heydər Əliyevin Azərbaycan xalqının müstəqilliyi, dövlətçiliyimizin inkişafı yolunda göstərdiyi xidmətlərdən danışaraq, ölkəmizdə siyasi sabitliyin yaranmasının, Azərbaycan ideologiyasının yaranmasının və inkişafının, respublikamızın dünya birliyinə inteqrasiyasının Ümummilli Liderin adı ilə bağlı olduğunu deyib.

Heydər Əliyevin liderlik keyfiyyətlərinin dünya miqyasında qəbul olunduğunu deyən akademik Gövhər Baxşəliyeva, onun siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini qeyd edib.

Tədbirdə iştirak edən AMEA Rəyasət Heyətinin elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru Coşqun Məmmədov çıxış edərək iştirakçıları qarşıdan gələn 15 İyun - Milli Qurtuluş Günü münasibətilə təbrik edib. O bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı mürəkkəb hərbi, ictimai-siyasi böhrandan çıxararaq dövlət müstəqilliyinin qorunmasında və ölkənin inkişaf yoluna qədəm qoymasında xilaskar missiyası yerinə yetirib.

C.Məmmədov qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan inkişaf strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun sözlərinə görə, Azərbaycan hazırda iqtisadi, hərbi və digər sahələrdə dinamik inkişaf edən, beynəlxalq nüfuzu artan dövlətlərdən biridir. Natiq vurğulayıb ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynadığı kimi, bu gün Cənub Qaz Dəhlizi, TAP və TANAP kimi qlobal əhəmiyyətli enerji layihələri enerji xəritəsini genişləndirərək Azərbaycanın dünya enerji bazarındakı mövqeyini daha da gücləndirib. O, həmçinin Azərbaycanın yaşıl enerji və yaşıl iqtisadiyyat istiqamətində sürətlə inteqrasiya edən dövlətlərdən birinə çevrildiyini diqqətə çatdırıb.

AMEA rəsmisi bildirib ki, 44 günlük Vətən müharibəsində əldə olunan möhtəşəm Zəfər və sonrakı bir günlük antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyinin tam bərpa olunması müstəqillik dövründə həyata keçirilən uğurlu dövlət siyasətinin və son iyirmi ildə qazanılan inkişafın məntiqi nəticəsi, bir növ hesabatıdır.

Şərqşünaslıq İnstitutunun Türkiyə tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Namiq Məmmədov çıxış edərək 90-cı illərin əvvəllərində respublikamızda mövcud olan ağır iqtisadi vəziyyətdən danışaraq, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizin siyasi böhrandan çıxmaqla yanaşı iqtisadi inkişafının da əsasının qoyulduğunu deyib. N.Məmmədov bildirib ki, Ümummilli Lider Azərbaycanı bölünmədən qurtardı. Natiq qeyd edib ki, Heydər Əliyevin həyata keçirdiyi siyasət uzunmüddətli perspektivdə öz bəhrəsini verdi.

Tədbirdə, həmçinin institutun Cənubi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktopru, dosent Səməd Bayramzadə, Yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Mehdi Kazımov çıxış edərək, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızın əldə etdiyi uğurlardan danışıblar, unudulmaz rəhbərin adının tarixə əbədi həkk olunduğunu qeyd ediblər.

# Arxeologiya və Antropologiya İnstitutunda



**AMEA Arxeologiya və Antropologiya İnstitutunda Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib.**

Tədbiri giriş sözü ilə institutun direktoru tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev açaraq, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin həmin ağır dönəmində ictimaiyyətin müraciəti ilə Bakıya gəlişini və Milli Məclisin sədri vəzifəsinə seçilməsini Azərbaycan xalqının və dövlətçiliymizin xilası üçün möhtəşəm bir tarixi hadisə olduğunu vurğuladı. ”Ulu Öndər Heydər Əliyevin hakimiyyətə dönüşü faktiki olaraq dövlətimizi və xalqımızı xilas etdi.

Bütün bu nəhəng əziyyətlər nəticəsində Ulu Öndərin siyasi xətti, onun layiqli davamçısı, Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dönəmində məntiqi nəticələrini bütün dünyaya nümayiş etdirdi: Vətən torpaqları yağı düşməndən azad edildi, Azərbaycan Respublikası - dünya güclərinin hesablaşdığı bölgənin aparıcı qüvvə mərkəzinə çevrildi” - deyə Fərhad Quliyev çıxışında bildirdi.

Daha sonra çıxış edən institutun Orta və Son Tunc dövrü şöbəsinin baş elmi işçisi, tarix elmləri doktoru, professor Hidayət Cəfərov vurğuladı ki, 15 iyun Milli Qurtuluş Günü barədə gənclər arasında maarifləndirici işin aparılması milli mənafelərimiz baxımından vacib bir tədbirdir. Müasir gənc nəsillərimiz dövlətimizin hansı təhlükə ilə üzləşdiyini və Ümummilli Liderin dövlətimizi və xalqımızı hansı uçurumdan xilas etdiyini bilməlidirlər. ”Heydər Əliyevin müdrikliyi və siyasi məharəti məhz onda idi ki, o, düşmən işğalı davam etdiyi bir zamanda vətəndaş müharibəsini, qardaş qırğınını başlanğıcında durdurdu” - deyə professor Hidayət Cəfərov vurğuladı.

İnstitutun İslam dövrü arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Qafar Cəbiyev həmin ağır dönəmdə baş verən hadisələri xatırladı. Professor Qafar Cəbiyev bildirdi ki, Heydər Əliyevin hakimiyyətə xalqın dəvətilə qayıtması ərəfəsində baş verən dərəbəylik artıq təhlükəli səviyyəyə yüksəlmişdi. ”Bölgələrdə silahlı dəstələr açıq soyğunçuluğa, talana, icra hakimiyyəti başçılarını devirməyə başlamışdılar. Gözümüzün qarşısında anarxiya baş alıb gedirdi, dövlətimiz, siyasi terminlə desək ”livanlaşmaya”, silahlı dəstələrin dərəbəyliyi girdabına yuvarlanırdı” - deyə çıxışçı bildirdi. ”Ona görə də, bugünkü sabitlik, rifah yüksəkliyindən, möhkəm təmələ bağlı dövlətçilik zirvəsindən həmin faciəli günlərə nəzər saldıqda, 15 İyunu həqiqətən də Dövlətimiz və Xalqımız üçün Milli Qurtuluş günü kimi dəyərləndirməliyik” - deyə professor Qafar Cəbiyev qeyd etdi.

İnstitutun Arxeoloji abidələrin qeydiyyatı və pasportlaşdırılması şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Mikayıl Mustafayev çıxışında göstərdi ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan dövlətinin hər bir sahəsində olduğu kimi, elm sahəsində də inkişafına zəmin yaratdı. ”Arxeologiya elminin institutlaşması, Əsrin Müqaviləsinin imzalanması, bunun da nəticəsi kimi Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi ilə əlaqədar arxeoloji tədqiqatların vüsət alması və bu zəmində müasir arxeologiyamızın inkişafı - bütün bu uğurlarımızın kökündə məhz, Ümummilli Liderin hakimiyyətə dönüşü, 15 İyun - Milli Qurtuluş günü durmaqdadır” - deyə M.Mustafayev vurğuladı.

# Dövlətçiliyimizin sabitlik və inkişaf mərhələsi

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş ”Dövlətçiliyimizin sabitlik və inkişaf mərhələsi” adlı lektoriya keçirilib.**



YAP Yasamal rayon təşkilatının və MEK-in birgə təşkilatçılığı ilə keçirilən tədbirdə öncə müasir müstəqil Azərbaycan Respublikasının qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin kitabxanadakı büstü ziyarət olunaraq əziz xatirəsi dərin ehtiramla yad edilib, önünə gül dəstələri düzülüb.

Lektoriyada Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.

MEK-in direktoru texnika elmləri doktoru Hüseyn Hüseynov tədbiri giriş sözü ilə açaraq xalqın yaddaşında və taleyində mühüm dönüş nöqtəsinə çevrilən 15 İyun - Milli Qurtuluş Günü münasibətilə iştirakçıları təbrik edib. Direktor bildirib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizi dərin siyasi böhrandan, parçalanma və vətəndaş qarşıdurması təhlükəsindən xilas edərək sabitlik və inkişafın əsasını qoyub.

Çıxışı zamanı Ulu Öndərin kitabxana quruculuğu ilə bağlı siyasətinə də toxunan direktor Heydər Əliyevin kitabxanalarımızı məhv olmaq təhlükəsindən xilas etdiyini diqqətə çatdırıb. O, vurğulayıb ki, 90-cı illərin əvvəllərində başlanan kütləvi özəlləşdirmə dalğasında kitabxana binalarının zəbt edilməsinin, qiymətli fondların dağıdılmasının qarşısını məhz Ulu Öndərin qətiyyəti aldı. Onun imzaladığı fərmanlarla kitabxanaların özəlləşdirilməsi qəti qadağan edildi. 1998-ci ildə ölkə tarixində ilk dəfə ”Kitabxana işi haqqında” Qanunun qəbul edilməsi bu sahənin hüquqi bazasını möhkəmləndirdi.

Direktor vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin siyasi kurs uğurla davam etdirilir, Azərbaycanın beynəlxalq nüfuzu daha da möhkəmlənir.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev çıxışı zamanı tariximizə Milli Qurtuluş Günü kimi qızıl hərflərlə daxil olmuş 15 iyunun tarixi və mahiyyəti haqqında danışıb. Bəxtiyar Nəbiyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyi dövründə ölkənin sənaye, kənd təsərrüfatı və kadr potensialının inkişafı gələcək müstəqilliyin möhkəm təməlini formalaşdırıb.

Qeyd olunub ki, 15 İyun - Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində mühüm dönüş nöqtəsi oldu.

Bəxtiyar Nəbiyev vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Ulu Öndərin müəyyənləşdirdiyi strateji kursun uğurlu davamıdır. Qarabağın azad olunması, Böyük Qayıdış proqramının icrası və işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işləri bunun bariz nümunəsidir.

Daha sonra AMEA-nın A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin baş elmi işçisi, tarix elmləri doktoru, professor Mais Əmrahov ”Tarix yaradan şəxsiyyət” mövzusunda məruzə ilə çıxış edib.

Alim bildirib ki, Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi kimi fəaliyyətə başladığı 1970-ci illərin əvvəllərindən etibarən respublikanın tarixində yeni bir mərhələ - milli intibah dövrü başlanıb. Bu dövrün əsasını Ulu Öndərin formalaşdırdığı milli ideoloji konsepsiya, milli özünüdərk və dövlətçilik düşüncəsinin möhkəmləndirilməsi təşkil edib.

Məruzəçi qeyd edib ki, XX əsrin sonlarında ölkəmizin üzləşdiyi ağır ictimai-siyasi və iqtisadi böhran şəraitində Azərbaycanı xaosdan çıxara biləcək güclü siyasi liderə ehtiyac var idi. Məhz buna görə də 1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərində Heydər Əliyev xalqın böyük əksəriyyətinin etimadını qazanaraq ölkə rəhbərliyinə seçilib.

Professor Mais Əmrahov vurğulayıb ki, müstəqilliyimizin möhkəmləndirilməsinin birinci mərhələsi hesab olunan 1993-2003-cü illərdə Heydər Əliyevin həyata keçirdiyi xarici siyasətin əsasını beynəlxalq hüquq normalarına hörmət, dövlətlərin ərazi bütövlüyünün tanınması, qarşılıqlı faydalı əməkdaşlıq və milli maraqların qorunması prinsipləri təşkil edib. O, həmçinin qeyd edib ki, Heydər Əliyev Azərbaycanın müasir tarixinə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının müəllifi, azərbaycançılıq ideologiyasının banisi və vahid milli dövlətçilik konsepsiyasının yaradıcısı kimi daxil olub.

Məruzəçi diqqətə çatdırıb ki, 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərin təməlində Milli Qurtuluş Günü ilə başlanan və Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kurs dayanır. Bu strateji xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası ilə nəticələnib.

Tədbirdə çıxış edən Biblioqrafiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Aytən Əliyeva da görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının taleyində, onun siyasi, ictimai və mənəvi həyatında oynadığı müstəsna roldan bəhs edib. O, Ulu Öndərin müasir Azərbaycan dövlətinin qurulması, milli-mənəvi dəyərlərin qorunması və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi istiqamətində göstərdiyi misilsiz xidmətləri xüsusi vurğulayıb.

Lektoriya Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə yekunlaşıb.

***

***Qeyd edək ki, AMEA-nın bütün elmi-tədqiqat müəssisə və təşkilatlarında 15 iyun - Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilib.***

# Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyliyə həsr olunmuş biblioqrafik göstərici

**Azərbaycan mədəniyyətinin, dramaturgiyasının və publisistikasının inkişafında misilsiz xidmətləri olan dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illiyi münasibətilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasının (MEK) tərtibatında "Akademik Üzeyir Hacıbəyli" adlı biblioqrafik göstərici işıq üzü görüb.**




Vəsait dahi Azərbaycan bəstəkarı, milli operanın banisi, görkəmli musiqişünas - alim, publisist və pedaqoq Üzeyir Hacıbəylinin həyatını, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas mərhələlərini əhatə edir. Nəşrdə bəstəkarın musiqi əsərləri, orkestr və instrumental müşayiət üçün xor əsərləri, romansları, xoreoqrafik miniatürləri və proqramları, kitabları, publisistik məqalələri, dövri mətbuatda və məcmuələrdə dərc olunmuş hekayələri, felyetonları və miniatürləri, həmçinin onun haqqında yazılmış mənbələr toplanıb.

Biblioqrafik göstəricidə Üzeyir Musiqi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, bəstəkarın yubileylərinin qeyd olunmasına dair sərəncamlar yer alıb.

AMEA Rəyasət Heyətinin müvafiq qərarına əsasən, "Elm" nəşriyyatında çap olunan biblioqrafik göstəricinin elmi məsləhətçisi və ön sözünün müəllifi AMEA-nın prezidenti akademik İsa Həbibbəylidir.

Nəşrin elmi redaktoru MEK-in direktoru texnika elmləri doktoru Hüseyn Hüseynov, redaktorları Biblioqrafiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Aytən Əliyeva və Elmi biblioqrafiya sektorunun rəhbəri Nərgiz Novruzova, tərtibçisi isə şöbənin əməkdaşı, baş biblioqraf Türkan Vahidovadır.

Təqdim olunan biblioqrafik göstərici musiqişünaslar, bu sahədə elmi-tədqiqat işi aparan alim və mütəxəssislər, ali məktəb müəllimləri və tələbələri, eləcə də geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

Qeyd edək ki, nəşrin elektron versiyası ilə kitabxananın saytının Elektron kitabxana bölməsində tanış olmaq mümkündür.

# "Krım sevgisi" kitabının 2-ci cildi

**AMEA Folklor İnstitutunun əməkdaşı, tanınmış araşdırmaçı və publisist Əli Şamilin (Şamilov Əli Hüseyn oğlu) "Krım sevgisi" kitabının ikinci cildi Bakı şəhərində "İmza" Nəşrlər Evində nəşr olunub.**




Nəşr Azərbaycan ilə Krım türkləri arasında tarixi, ədəbi və mədəni əlaqələrin araşdırılmasına həsr olunmuş zəngin elmi-publisistik məqalələri və sənəd xarakterli materialları özündə birləşdirir.

Kitabda ilk peşəkar qadın aktyorlardan olan Fatma Qədrinin həyat və yaradıcılığı, görkəmli Krım tatar yazıçısı Çingiz Dağcının həyatı və əsərləri, repressiya qurbanları, Azərbaycan Bəstəkarlar İttifaqının ilk sədri, Krım türkü Asan Rıfatovun faciəli taleyi, eləcə də sovet dövründə sürgün edilmiş Krım türklərinin taleyi ilə bağlı araşdırmalar yer alıb. Nəşrdə Əli Səngərlinin "Bağçasaray" şeirinin yaranma tarixindən, Krım milli mübarizəsinin müxtəlif simalarından və Türk dünyasının tanınmış şəxsiyyətlərindən bəhs edən məqalələr də təqdim olunur.

"Krım sevgisi"nin ikinci cildində müəllifin Kırım tatar ziyalıları, elm və mədəniyyət xadimləri ilə yazışmalarının bir qismi də dərc edilib. Bu məktublar yalnız şəxsi münasibətlərin deyil, həm də dövrün ictimai-siyasi hadisələrinin, milli-mədəni əlaqələrin və Türk xalqlarının həmrəyliyi ideyasının öyrənilməsi baxımından mühüm mənbə kimi diqqəti cəlb edir.

Kitabın ön sözündə müəllif Krım mövzusuna marağının formalaşma tarixindən, Krım türklərinin sürgün faciəsinə dair araşdırmalarından və Azərbaycan-Krım əlaqələrinin inkişafına yönəlmiş fəaliyyətindən bəhs edir. Əli Şamil qeyd edir ki, nəşrin əsas məqsədi Azərbaycan oxucularını Krım türklərinin tarixi, milli mübarizəsi və mədəni irsi ilə daha yaxından tanış etməkdir.

"Krım sevgisi" kitabının ikinci cildi Azərbaycan və Krım türkləri arasındakı ədəbi, elmi və mədəni münasibətlərin öyrənilməsi, ortaq türk yaddaşının qorunması və gələcək nəsillərə çatdırılması baxımından əhəmiyyətli elmi mənbə kimi dəyərləndirilir.

Qeyd edək ki, 384 səhifədən ibarət olan kitabın redaktorları Zera Bekirova və Cəmilə Niyaz qızıdır.

# Professorun həmmüəllifi olduğu məqalə AHCI Q1 və Scopus Q1 indeksli jurnalda

**AMEA Folklor İnstitutunun Folklor nəzəriyyəsi şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Füzuli Bayat və Türkiyəli professor Haktan Kaplanın həmmüəllifi olduqları "The Theological Transformation of Tengrism from the Ancient Turkish Belief System to the Modern Era and Its Cultural Interactions" ("Tanrıçılığının qədim türk inanc sistemindən müasir dövrə qədər teoloji transformasiyası və onun mədəni qarşılıqlı əlaqələri") adlı elmi məqalə beynəlxalq nüfuzlu "Religions" jurnalında dərc olunub.**




İsveçrənin MDPI nəşriyyatında yayımlanan "Religions" jurnalı AHCI Q1 və Scopus Q1 bazalarında indekslənir. Azərbaycan və Türkiyə alimlərinin birgə elmi əməkdaşlığının məhsulu olan məqalə türk inanc tarixi, mifologiyası və folklorunun tədqiqinə multidisiplinar yanaşma təqdim edir.

Tədqiqatda qədim türk inanc sisteminin mərkəzində dayanan Tanrı anlayışının tarixi və teoloji transformasiyası araşdırılıb, onun müqəddəslik, kosmologiya, törə, qut, mifoloji yaddaş və mədəni davamlılıqla bağlı aspektləri təhlil olunub. Məqalədə tanrıçılıq yalnız keçmişə aid inanc sistemi kimi deyil, türk mədəniyyətinin müxtəlif tarixi mərhələlərində öz izlərini qoruyub saxlayan güclü mənalar və dəyərlər sistemi kimi qiymətləndirilir.

Araşdırma türk dünyasının ortaq yaddaşı, inanc qatları və mədəni dərinliyi ilə maraqlanan tədqiqatçılar üçün əhəmiyyətli elmi mənbə olmaqla yanaşı, türk mifoloji düşüncəsinin və inanc tarixinin müasir elmi kontekstdə öyrənilməsinə yeni baxış təqdim edir.

# İkidilli lüğətdən çoxdilli lüğətə aparan yol

**İkidilli lüğət analyışı həm bir dili ikinci dil vasirtəsi ilə verilməsi. həm də təmsil olunan dillərin müqayisəli tutuşdurmasıdır.**




2025-ci ildə "Elm və Təhsil" nəşriyyatında çapdan çıxmış "Müasir türk dillərinin ikidilli lüğəti"nin qohum dillərin müqayisəli - tutuşdurma metodu ilə tədqiqi daha əlverişlidir. Türk xalqlarının birliyinə bu zamana qədər ən əlverişli, münbit bir şərait yarandığı bir dövrdə mədəniyyətlərinin, dillərinin bir daha yenidən araşdırılması tələbi də meydana çıxır. Hazırkı lüğət məhz bu prosesin nəticəsi kimi yarandığı göz qabağındadır.

Lüğətin AMEA türkologiya şöbəsində yaranması təsadüfi deyildir. Keçmiş İttifaq miqyasında türkologiya dilçiliyin ən maraq doğuran, inkişaf etmiş sahələrindən biri olmuşdur. Türk dilləriin araşdırılmasına Radlov, Vamberi, Tomson, Dmitriyev illərini vermişlər. sovet türkologiyasının flaqmanı Azərbaycan elmi olmuşdur. Təsadüfi deyil ki, "Sovetskaya türkologiya" jurnalı məhz Bakıda nəşr olunurdu, Bakı indi də "Türkologiya" jurnalına ev sahibliyi edir. Türkologiya indiki dövrdə heç zaman olmadığı populyarlığı, əhəmiyyətini nümayiş etdirir. Lüğətin ön sözündə göstərildiyi kimi Türk dilləri şöbəsinin əməkdaları professor İsmayıl Kazımov, dos. Ş.Orucova, dosent T.Şükürlü, Cahid Kazımovun araşdırmlarının praktik nəticəsi kimi diqqət cəlb edir.

Əslində, burada bir deyil, bir neçə müxtəlif lüğət toplanıb. Ayrı-ayrı lüğətlərin tərtib edilməsi və onların bir kitab şəklində elmi ictimaiyyətə təqdim olunması əlamətdardır.

Lüğət iki funksiyanı yerinə yetirir: 1. Bir türk dilinin leksik vahidinin digər türk dilinə çevrilməsi; bu sırf tərcüməçilərə, dili öyrənənlərə xidmət edir, 2. İki dilin müqayisəli araşdırılması, tədqiq olunması; bu da tədqiqatçılara, xüsusən gənc türkloloqlara, Azərbaycanda gündən-günə inkişaf edən türkologiya sahəsinin ixtisas sahiblərinə - elm adamlarına xidmətdir.

Lüğəti beş müstəqil lüğətdən ibarət hesab etmək olar. Bu sayda lüğətlərin bir kitabda toplanması daha geniş müqayisıəyə imkan yaradır, yəni bir lüğətdən digərinə keçid almaq olur. Oğuz, qıpçaq, karluğ qrupu dillərinin bir lüğətdə təmsil olunması türk dünyasının birliyi kontekstində dillərin qohumluq dərəcəsini bir daha sərgiləyir.

Azərbaycan türkcəsinin türk, türkmən, qaqauz dilləri ilə yaxınlığı elmi ədəbiyyatdan məlum olduğu kimi, praktik cəhətdən də, təcrübədə də özünü göstərmişdir. Oğuz qrupu dillərinə nisbətən uzaq qohumluq əlaqələri olan tatar, qazax, özbək dillərinin müqayisəsini izləmək. dildə olan simmetriyanı və asimmetriyanı müşahidə eləmək də maraq doğurur.

İ.Kazımovun tərtib etdiyi "Tatarca-azərbaycanca lüğət" ön sözlə başlayır. Ön sözün mütəxəssis türkoloq tərəfindən yazılması digər dillərin lüğətlərinin də yol xəritəsini vermiş olur. Alim lüğətin quruluşundan, lüğətdən istifadə qaydalarını oxucuya çatdırılır ki, bu da məhz praktik lüğətçiliyin tələblərinə cavab verir. Bu hissə 38.000 sözü əhatə edir. Bu sözlük kiçik lüğətlərin çərçivəsindən çıxması, orta lüğətlərə bariz nümunə olması deməkdir. Tərtibçinin qeyd etdiyi kimi, həqiqətən, tatar leksikoqrafiyası zəngin tarixə malikdir və bu ənənə lüğət tərtibçılərinə nəzəri baza yarada bilmişdir.

Təbiidir ki, lüğətin özəyini ümumişlək sözlər əhatə edir. Bu sözlərdən başqa tatar ədəbiyyatında işlənmiş dialekt sözləri və köhnəlmi sözlərin də ehtiva olunması lüğətçilik ənənəsindən irəli gəlir. Bir tərəfdən, zəngin tatar ədəbiyyatı buna əsas verir, digər tərəfdən oxucunun bu sözlərə rast gəlməsi ehtimalı və lüğətin bu işdə ona yardımçı olmaq səyi bu prinsipə zəmin yaradır.

Ön sözdə tatarlar, tatar adı, tatar dili və tarixi abidələri haqqında ümumi məlumat verilir. Sonda tatar dilinin qrammatikası haqqında qısa oçerk verilməsi artıq bu işin lüğət çərçivəsindən çıxaraq araşdırma səciyyəsi daşıdığına bir işarədir.

Diqqətimi leksikoqrafik terminologiyaya münasibət cəlb elədi. Belə ki, görkəmli lüğətçi, izahlı lüğətin redaktoru və tərtibçisi Əliheydər Orucov "lüğət maddəsi", "Azərbaycanca-rusca lüğət"in tərtibçisi və redaktoru Məmməd Tağıyev "lüğət məqaləsi" terminindən istifadə etmişlər. İsmayıl Kazımovun "lüğət məqaləsi" termininə üstünlük verməsi bu terminin artıq oturuşmasından xəbər verir. Vaxtilə maddə sözü mənə daha məntiqli və məqsəduyğun görünürdü. Ancaq M.Tağıyev lüğətdə hətta iki-üç sətir tutan məlumatı yazmaq üçün neçə mənbəyə müraciət edib, neçə ədəbiyyat nümunəsini nəzərdən keçirildiyini nəzərə alaraq "məqalə" sözünə üstünlük verdiyini demişdi. Onun fikrincə, bir lüğət məqaləsi elə bir məqaləyə bərabər olur. Düşünürəm ki. tərtibçilər də bu məsələyə belə yanaşmış, lüğət maddəsini məqalə səviyyəsində görməyə çalışmışlar. Sintaksis haqqında məlumat vermək də bu işin sıradan lüğət olmamasından xəbər verir.

Qazaxca-azərbaycanca lüğət dosent Şəkər Orucova tərəfindən tərtib olunmuşdur. Burada da türk dillərinin qıpçaq qrupuna daxil olan qazax dili haqqında məlumat verilir. Daha çox fonetika haqqında məlumat verilməsi iki dilin fonetik sistemində fərqlərin olmasından irəli gəlir. Belə ki, fonetik tərkibin müxtəlif olması bəzən lüğət istifadəçisinə sözün tapılmasında çətinlik yaradır. Fonetika sahəsində məlumatların verilməsi də praktik məqsədlərə xidmət edir. Məsələn: Sözün əvvəlində əski türkcənin k, q, t kimi samitlərinin qorunması; sözün əvvəlində y samitinin j samitinə keçməsi və s... Ön sözdə tədqiqi tarixi haqqında məlumata da rast gəlirik ki, bu da lüğətin elmi-nəzəri məqsədləri ilə bağlıdır. Qeyd edək ki, burada dilin digər sahələri: morfologiya, sintaksis məsələlər ilə bağlı məlumatlar da maraq doğurardı. Sözlükdə leksik vahidlərlə yanaşı, bəzən söz birləşmələrinin yer alması buna əsas verir: Məsələn, ab-havalı yer, ayüzlü gözəl, avtomobil yarışı, baş nazir və s...

Azərbaycan və özbək dillərinin təmsil olunduğu hissə əslində, iki lüğət olub, Azərbaycanca-özbəkcə, özbəkcə azərbaycanca lüğətlər kimi təqdim oluna bilər (tərtibçi: dos.T.Şükürlü). Burada məxəz və hədəf dillərinin hər ikisinin təmsil olunması təqdirəlayiqdir. Belə ki, lüğətçilikdə məxəz və hədəf dillərinin dəyişməsi məqsədi və adresatı da fərqli edir, leksik vahidlərin leksikoqrafik həlli də fərqli olur.

Son zamanlar əlaqələrin genişləndiyi və daha məhsuldar olduğu bir dövrdə dillər arasıda əlaqələrin də öyrənilməsi, tətbiqi zamanın tələbidir. Etiraf etmək lazımdır ki, hazırda özbək və Azərbaycan xalqları arasında mədəni əlaqələr digər türk ölkələrindən daha genişdir. Ön sözdə deyildiyi kimi, özbək-azərbaycan əlaqələrinin tarixi qədimdir. Hazırda bu əlaqələr yüksək səviyyəyə çatdmışdır. Özbəkistanda Azərbaycan mədəniyyət mərkəzinin açılması ilə bu lüğətlərin istifadə sahəsi daha da genişlənir. Bu cəhətdən lüğətin istər kommunikasiya baxımından, istərsə də nəzəri baxımdan əhəmiyyəti danılmazdır. Karluq qrupuna aid olan özbək dilində də daha çox fonetik səviyyədə tərcümələr özünü göstərir: Aba - jubba; Almazı olmosdan; Baba- boba tipli məqalələr fonetik səviyyədə tərcüməni əks etditrir, və dillərin qohumluq münasibətlərini əks etdirir.

Ən maraq doğuran hissələrdən biri "Qaqauzca-azərbaycanca lüğət"dir. Azərbaycan dilinə ən yaxın (türk və türkmən dilləri ilə yanaşı) dil olan qaqauz dili bir də ona görə maraq cəlb edir ki, uzun illər bu dil anklav şəraitdə mövcud olmuş və yad təsirlərə məruz qalmaqla yanaşı, qədim türk elementlərini daha çox mühafizə edib saxlaya bilmişdir. Lüğətin əvvəlində qaqauzlar haqqında geniş məlumat vermək yerinə düşmüşdür. Burada lüğətin tərtib prinsipləri haqqında məlumat digər ikidilli lüğətlər üçün nümunə ola bilər. Qaqauzca-azərbaycanca lüğətdə də qohum dillər üçün xas olan fonem (qrafem) səviyyədə tərcümə göz önündədir. Bak - bax. bin-min, kuş-quş, kan-qan. Təbii ki, leksik səviyyədə müqayisə də marağa səbəb olur. Leksik səviyyədə müqayisə qaqauz dilinin məhz Türkiyə türkcəsinə yaxınlığını əyani nümayiş etdirir. Kendi-özü, kızkardaş -bacı, birkaç-bir neçə və s...

"Müasir türk dillərinin ikidilli lüğətini" Türk xalqlarının, türk dövlətlərinin yaxınlaşması, birləşməsi fonunda türk dillərinin müqayisəli araşdırmalarının leksikoqrafik həllinin başlanğıcı hesab etmək olar. Hər bir başlanğıc daha təkmil araşdırmaların meydana gəlməsinə bir işarədir. Ümid edirik, gələcək nəşrlərdə xətalar aradan qaldırılacaq, mükəmməl lüğətlər meydana gələcək. Türkoloqlarımızdan dillərin çoxdilli müqayisəli lüğətini tezliklə gözləyirik.

**Şəhla ƏHMƏDOVA**
**filologiya üzrə fəlsəfə doktoru**

ŞƏHƏRSALMA VƏ MEMARLIQ İLİ

# Azərbaycanda alman memarlığı



**AMEA-da "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Azərbaycanda alman memarlığı" ("Deutsche Architektur in Aserbaidschan") mövzusunda beynəlxalq konfrans keçirilib.**

Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU), Alman-Azərbaycan Cəmiyyəti və AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun birgə təşkilatçılığı ilə gerçəkləşən tədbirdə Türkiyə, Almaniya, Gürcüstan və digər ölkələrin alimləri ilə yanaşı, tanınmış memarlar, tarixçilər və mədəniyyət xadimləri də iştirak ediblər.

Əvvəlcə konfrans çərçivəsində AzMİU-nun Memarlıq fakültəsində fotosərgiyə baxış keçirilib. Sərgidə universitetin rektoru professor Gülçöhrə Məmmədova, Alman-Azərbaycan Cəmiyyətinin sədri professor Çingiz Abdullayev, Azərbaycan Rəssamlar İttifaqının sədr müavini Xalq rəssamı Ağəli İbrahimov və AzMİU-nun Memarlıq fakültəsinin dekanı professor Zahidə Məmmədova çıxış edərək sərginin elmi və mədəni əhəmiyyətindən danışıblar.

AMEA-nın Əsas binasında keçirilən beynəlxalq konfransı giriş nitqi ilə Memarlıq və İncəsənət İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə açıb. Direktor qeyd edib ki, bu ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi, eyni zamanda Birləşmiş Millətlər Təşkilatının ən nüfuzlu tədbirlərindən biri olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) Bakıda keçirilməsi Azərbaycanın qlobal miqyasda şəhərsalma və memarlıq mərkəzi kimi mövqeyini bir daha möhkəmləndirir.

Professor Ərtegin Salamzadə bildirib ki, Bakı XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində, xüsusilə İçərişəhər ətrafında formalaşan memarlıq mühitində alman memarlarının mühüm izi olan şəhərlərdən biridir. Həmin dövrdə alman memarlarının iştirakı ilə inşa edilən yaşayış, ictimai və digər təyinatlı binalar şəhərin memarlıq simasının formalaşmasında əhəmiyyətli rol oynayıb.

Direktor çıxışında Azərbaycanda alman məskənlərinin tarixi, alman memarlarının fəaliyyəti, ölkəmizdə bu günədək qorunub saxlanılan alman memarlıq nümunələri və bu irsin gələcək nəsillərə ötürülməsinin vacibliyi məsələlərinə də toxunub. O, yalnız Bakıda deyil, Azərbaycanın müxtəlif bölgələrində almanların kompakt şəkildə yaşadıqlarını, həmin ərazilərdə də alman memarlığına aid izlərin mövcud olduğunu diqqətə çatdırıb.



Professor Ərtegin Salamzadə konfrans çərçivəsində Bakı şəhərinin müxtəlif illərdə baş memarı kimi fəaliyyət göstərmiş memarların yaradıcılığı, eləcə də alman memarlıq irsinin Azərbaycan şəhərsalma tarixində tutduğu yer barədə məruzələrin dinləniləcəyini söyləyib.

O, konfrans iştirakçılarına uğurlar arzulayaraq, tədbirin elmi müzakirələr və beynəlxalq əməkdaşlıq baxımından mühüm platforma olacağına əminliyini ifadə edib.

Daha sonra çıxış edən Alman-Azərbaycan Cəmiyyətinin sədri professor Çingiz Abdullayev Azərbaycanda alman memarlıq irsinin əhəmiyyətindən bəhs edib, alman memarlığı nümunələrinə ölkəmizin müxtəlif bölgələrində - xüsusilə Göygöl, Şəmkir və Gədəbəy ərazilərində rast gəlindiyini bildirib. Qeyd edib ki, bu nümunələr XIX-XX əsrlərdə formalaşmış mədəni-memarlıq mühitinin ayrılmaz tərkib hissəsidir.

Professor Çingiz Abdullayev alman memarlığının ən dəyərli nümunələrindən birinin Bakı şəhərində yerləşən alman-lüteran kilsəsi olduğunu vurğulayıb. Bildirib ki, 1899-cu ildə istifadəyə verilmiş bu abidə həmin dövrdə Bakının ən nadir memarlıq incilərindən biri kimi tanınıb və şəhərin memarlıq simasında xüsusi yer tutub.

Cəmiyyət sədri Prezident İlham Əliyevin təşəbbüsü ilə 2010-cu ildə binada əsaslı təmir və bərpa işlərinə başlanıldığını, Azərbaycan mütəxəssisləri tərəfindən həyata keçirilən bərpa prosesi zamanı binanın özünəməxsus orijinal üslubu və tarixi memarlıq xüsusiyyətlərinin tam şəkildə qorunub saxlanıldığını diqqətə çatdırıb.

O, ənənəvi alman qotik memarlığının parlaq nümunələrindən olan bu binanın akustik xüsusiyyətlərinə xüsusi diqqət yetirildiyini də qeyd edib. Bildirib ki, hazırda tarixi alman-lüteran kilsəsi Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalı kimi fəaliyyət göstərir və mədəni həyatımızda mühüm rol oynayır.

Professor Çingiz Abdullayev konfrans çərçivəsində aparılan müzakirələrin beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi və alman memarlıq irsinin gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Tədbirdə bir qrup şəxs Almaniya-Azərbaycan memarlığının və dostluq ənənələrinin inkişafındakı xidmətlərinə görə Alman-Azərbaycan Cəmiyyəti tərəfindən diplomla təltif olunublar.

Konfransda, həmçinin Türkiyənin Çanaqqala Onsəkkiz Mart Universitetinin professoru Vedat Çalışkan, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun şöbə müdiri memarlıq üzrə elmlər doktoru Rahibə Əliyeva, həmin institutun elmi işçisi Ellada Abbasova, Gürcüstan-Almaniya Assosiasiyasının sədri Aleksandr Feldmayer, Almaniyalı tədqiqatçı İnge Şturm, Türkiyənin Özyeğin Universitetinin tədqiqatçısı Ayşegül Özer və AzMİU-nun doktorantı Aygün İmanova məruzələrlə çıxış ediblər. Çıxış edənlər alman memarlıq məktəbinin Cənubi Qafqazda, xüsusilə Azərbaycanda formalaşmasına təsir edən tarixi-sosial amillər, alman memarlarının şəhərsalma prosesində rolu, ayrı-ayrı regionlarda qorunub saxlanılan memarlıq nümunələrinin tədqiqi və mühafizəsi məsələlərindən bəhs ediblər. Məruzələrdə memarlıq irsinin yalnız tarixi abidə kimi deyil, eyni zamanda mədəni yaddaş, identiklik və müasir şəhərin inkişafı üçün strateji resurs kimi dəyərləndirilməsinin vacibliyi vurğulanıb.

# İşğal dövründə Azərbaycan ərazilərində qəbiristanlıqlar vandalizmə məruz qalıb

**İşğaldan azad edilmiş ərazilərdə aparılan monitorinqlər zamanı bir çox Azərbaycan məzarlıqlarının tamamilə vandalizmə məruz qaldığı, tarixi və mənəvi dəyərə malik qəbiristanlıqların yer üzündən silindiyi aşkarlanıb. Bu faktlar bölgədə Azərbaycan xalqının mədəni və dini irsinə qarşı törədilmiş dağıntıların miqyasını bir daha nümayiş etdirir.**



Bu barədə AMEA Memarlıq və İncəsənət institutunun aparıcı elmi işçisi memarlıq üzrə fəlsəfə doktoru, dosent Rizvan Qarabağlı məlumat verib. O bildirib ki, işğaldan azad edilmiş Ağdam, Füzuli, Zəngilan, Kəlbəcər və Cəbrayıl rayonlarında azərbaycanlılara məxsus qəbiristanlıqların xüsusi qəddarlıqla və sistemli şəkildə dağıdıldığı müəyyən edilib. Aparılmış tədqiqatlar zamanı həmin ərazilərdə qəbiristanlıqların tamamilə məhv edildiyi, məzarların dağıdıldığı və maddi-mədəni irs nümunələrinin talan edildiyi aşkar olunub.

Rizvan Qarabağlının sözlərinə görə, qəbiristanlıqlardakı bahalı mərmər başdaşıları sökülərək aparılıb, bürünc elementlər oğurlanıb. Mərmər başdaşılarının bir hissəsinin Ermənistana daşındığı, üzərlərindəki yazıların silinərək yenidən satışa çıxarıldığı bildirilib.

Tədqiqatlar zamanı qəbirlərin kütləvi şəkildə qazılması faktları da qeydə alınıb. Məlumata əsasən, qızıl dişlər, bəzək əşyaları və digər qiymətli əşyaları əldə etmək məqsədilə minlərlə qəbir ekskavatorlarla qazılıb. Nəticədə mərhumların sümükləri ətrafa səpələnib. Bundan başqa, Füzuli və Cəbrayıl rayonlarında bəzi qəbiristanlıqların ərazisindən hərbi təyinatlı yolların keçirildiyi müəyyən olunub.

REGİON

# Naxçıvan Bölməsi Rəyasət Heyətinin iclası



**AMEA Naxçıvan Bölməsində Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

İclası giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev gündəlikdə duran məsələlər barədə məlumat verib.

Əvvəlcə İsmayıl Hacıyev AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Onomastika şöbəsinin müdiri Firudin Rzayevi filologiya elmləri doktoru elmi dərəcəsi alması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Bölmənin sədr müavini, filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov AMEA Naxçıvan Bölməsində "Əcəmi Naxçıvani: Naxçıvan memarlıq məktəbi və ənənələri" mövzusunda keçiriləcək respublika elmi konfransına hazırlığın vəziyyəti barədə məlumat verib. Qeyd edilib ki, AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə 26-28 iyunda keçiriləcək konfransa hazırlıq işləri yekunlaşmaq üzrədir. Təqdim edilən məqalələr Elmi heyət tərəfindən dəyərləndirilərək seçilib.

İclasda akademik İsmayıl Hacıyev AMEA Naxçıvan Bölməsində əmək intizamına nəzarət və əməl edilməsi haqqında, Bölmədə 2026-cı ildə aparılan arxeoloji ekspedisiyalar və çöl tədqiqatları barədə danışıb.

AMEA Naxçıvan Bölməsi Həmkarlar Təşkilatının sədri Gözəl Qənbərova Bölmənin Həmkarlar Təşkilatının 2026-cı ilin birinci yarısındakı fəaliyyəti haqqında məlumat verərək qeyd edib ki, təşkilat fəaliyyətini günün tələbləri səviyyəsində qurur, işçilərin sosial-iqtisadi hüquqlarının qorunması, əmək şəraitinin yaxşılaşdırılması sahəsində tədbirlər həyata keçirir.

Sonra akademik İsmayıl Hacıyev Rəşad Zülfüqarovu bölmənin sədr müavini təyin olunması münasibətilə təbrik edib, onu kollektivə təqdim edib.

Sonda Rəyasət heyəti 2026-cı il üçün doktoranturaya sənəd qəbulunun yekunları barədə çıxışı dinləyib, kadr məsələləri ilə bağlı məlumatları nəzərdən keçirib və cari məsələlərin müzakirəsindən sonra iclasa yekun vurulub.

# Gəncə şəhərinin tarixinə dair arxeoloji tədqiqatlara həsr olunan seminar



**AMEA-nın Gəncə Bölməsində şəhərin tarixinə dair arxeoloji tədqiqatlara həsr olunan seminar keçirilib.**

Tədbirdə Bölmənin Rəyasət Heyəti üzvləri və əməkdaşları iştirak ediblər.

Seminarı açan Bölmənin sədri, akademik Fuad Əliyev Azərbaycanın milli ruhunun ən güclü təzahürü baxımından əlamətdar şəhərlərdən olan Gəncənin tarixinin elmi cəhətdən köklü şəkildə işlənilməsi, bu xüsusda onun yerləşdiyi coğrafiyada davamlı arxeoloji tədqiqatların aparılmasının vacib olduğunu bildirib.

O, xatırladıb ki, dahi Nizami Gəncəvinin 870 illiyinin böyük təntənə ilə qeyd edildiyi tədbirlərdən bir qədər sonra, 2013-cü ildə şəhərdə bir çox arxeoloji və etnoqrafik tədqiqatların yenidən aparılmasına böyük etiyac duyulduğu nəzərə alınaraq, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı və yerli icra hakimiyyətinin dəstəyi ilə nüfuzlu beynəlxalq arxeoloji ekspedisiya qrupu Gəncə şəhərində və ətraf ərazilərdə arxeoloji qazıntılar aparmış, onun tarixinə dair qiymətli faktlar üzə çıxarmış və yeni yanaşmalar şəhərimizin yaşının 4 min il olduğunu ortaya qoymuşdur.

Akademik Fuad Əliyev bugünkü seminarın Gəncə şəhərinin tarixi-etnoqrafik mənzərəsinin öyrənilməsi yönündə xüsusən gənc tədqiqatçılara dəyərli məlumat və tezislər verə biləcəyinə inandığını bildirib.

Seminarda "Gəncədə aparılmış arxeoloji qazıntıların nəticələri və onların tarixi əhəmiyyəti" mövzusu üzrə Bölmənin Diyarşünaslıq İnstitutunun Tarix şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Nərgiz Rəsulova çıxış edib.

O, Şərq aləminin əhəmiyyətli yaşayış və nüfuz mərkəzlərindən biri olmuş Gəncə şəhərinin arxeoloji tədqiqatlarının xronologiyasına nəzər salıb. Bu baxımdan, çıxışçı xüsusilə XIX əsrdən etibarən şəhərin qədim və həmin dövrlərdəki tarixini və əhalinin məişətini öyrənmək üçün Avropa və Rusiya tədqiqatçılarının, eləcə də XX əsrdə görkəmli sovet və Azərbaycan alimlərinin, müstəqillik qazandığımızdan sonrakı müasir dövrümüzdə isə aparıcı arxeoloqlarımızın da iştirak etdiyi beynəlxalq ekspedisiyaların nəticələri barədə ətraflı məlumatlar verib.

İştirakçılar maraqlandıqları məsələlər barədə sual və mülahizələrini bölüşüblər.

Yekunda akademik Fuad Əliyev çıxışçı və iştirakçılara maraqlı müzakirələrə görə təşəkkür edib. O, tədbirin xüsusən gənc tədqiqatçıların Gəncənin arxeologiyası mövzusunda məlumatlarının artırılması üçün faydalı olduğunu vurğulayıb.

# Şəkinin Babaratma və Orta Zəyzid kəndlərində yerləşən abidələrin xarakterik xüsusiyyətləri öyrənilib

**AMEA-nın Şəki Regional Elmi Mərkəzinin (REM) Arxeologiya və etnoqrafiya şöbəsinin müdiri Elşən Abdurahmanov, əməkdaşlar Habil Xəlilov, Elçin Abdulhəmidov və Ramil Teymurov Şəkinin Babaratma və Orta Zəyzid kəndlərində elmi ekspedisiyada olublar.**



Şəki REM əməkdaşları Babaratma və Orta Zəyzid kəndlərində yerləşən abidələrin xarakterik xüsusiyyətlərini öyrənib, etnoqrafik materiallar toplayıb, arxeoloji kəşfiyyat işləri aparıblar.

# Milli yaddaşın yorulmaz tədqiqatçısı

**Azərbaycan folklorşünaslıq elminin tanınmış nümayəndələrindən biri, filologiya elmləri doktoru, professor Ramazan Qafarlının elmi fəaliyyətini nəzərdən keçirdikdə ilk öncə onun necə məhsuldar alim, zəhmətkeş ziyalı olduğunu görürük. Ramazan Qafarlı folklorşünaslıq elminin müxtəlif aspektlərinin, o cümlədən epik düşüncə və mifopoetik sistem, türk xalqlarının mifoloji düşüncəsi, ”Kitabi-Dədə Qorqud” abidəsi, Azərbaycan uşaq folkloru, folklor və yazılı ədəbiyyat əlaqələrinin öyrənilməsi istiqamətində dəyərli tədqiqatların müəllifi və özünəməxsus dəsti-xətti ilə seçilən alim kimi tanınır. Professor Seyfəddin Rzasoyun təbirincə desək, psixoloji cəhətdən passionarlığı onu sanki normalaşdırılmış, ülgülərə salınmış və hamıya rahat görünən bir ömür yaşamağa qoymur. Ona görə də daim narahat, mübarizələrlə dolu, həyati təşəbbüslərlə zəngin həyat keçirir... Bu, Ramazan Qafarlının taleyidir: Allahın Ramazan Qafarlı adlı bəndəsinin heç vaxt qaçmaq istəmədiyi tale... Onun Azərbaycan folklorşünaslığında öz yeri var. Bu yerə heç kəs qibtə etmir. Çünki o məqama çatmaq üçün həyatda və elmdə Ramazan Qafarlı kimi prinsipial və cəsarətli olmaq, üzərinə sel kimi gələn təhlükələrə qarşı sinə verib dayanmağı bacarmaq lazımdır** *(S.Rzasoy. Professor Ramazan Qafarlının düşüncə sistemində Azərbaycan-türk mifoloji dünya modeli // Ziyalı işığında. Ramazan Qafarlı - 70. Bakı, 2021, s.515).*



Ramazan Qafarlının qısa tərcümeyi-halına nəzər saldıqda onun zəngin bir alim ömrü yaşadığını görürük. O, 1951-ci il iyunun 17-də Şəkidə sənətkar ailəsində anadan olmuşdur. Atası Oruc kişinin sənəti dabbaqlıq idi. Bu qədim peşəyə son dərəcə bağlı olan Oruc kişini sovet rejiminin sərt qanunları daim təqib etmiş, incitmişdir. Bu səbəbdən Oruc kişi övladlarına ənənəvi dədə-baba sənətindən uzaqlaşmağı vəsiyyət etmiş, onları sənətə deyil, daha çox təhsilə yönəlməyə sövq etmişdir. 1956-cı ildə atası vəfat etmişdir. Ramazan Qafarlı ilk təhsilini Şəkidə 7 saylı məktəbdə almağa başlasa da, 1961-ci ildə ailəsi ilə birgə Bakıya köçmüş və təhsilini Bakıdakı 39 saylı orta məktəbdə davam etdirmişdir. O, 1970-1974-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində filologiya fakültəsində təhsil almış, institutun Elmi şurasının qərarı ilə həmin ali məktəbdə saxlanılmışdır. Estoniyada ordu sıralarında qulluq etmiş, sonra ADPU-nun o zamankı komsomol komitəsinin katibi, universitetin həmkarlar ittifaqında sədr kimi fəaliyyət göstərmişdir. 1977-ci ildə Rusiyaya getmiş, ömrünün bir neçə ilini orada yaşamış, müxtəlif şəhərlərdə iş icraçısı kimi fəaliyyət göstərmişdir. 1981-ci ildə yenidən doğma vətənə qayıtmış, Xətai rayonundakı 204 saylı orta məktəbdə ixtisası üzrə müəllim işləmişdir. 1984-cü ildə ADPU-nun aspiranturasına əyani qəbul olmuş, 1988-ci ildə ”Azərbaycan uşaq folkloru” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Elə həmin ildən ADPU-da pedaqoji fəaliyyətə başlamışdır. 1989-1991-ci illərdə ADPU-nun Müdafiə şurasının üzvü və elmi katibi olmuşdur. 2003-2004-cü illərdə Rusiyanın Sankt-Peterburq şəhərində A.Gertsen adına Rusiya Dövlət Pedaqoji Universitetində elmi təcrübə keçmiş, həmin universitetin Elmi şurasında ”Azərbaycan xalqının təsəvvüründə mifoloji dünya modeli” mövzusunda doktorluq dissertasiyasını təsdiqlətmişdir. Ailə vəziyyəti ilə əlaqədar yenidən Bakıya qayıdan Ramazan Qafarlı 2010-cu ildə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda ”Azərbaycan türklərinin mifologiyası” adlı doktorluq dissertasiyasını müdafiə etmişdir. O, uzun illər ADPU-nun nəzdindəki ”Dədə Qorqud” Elmi-Tədqiqat Mərkəzinin müdiri, Dünya ədəbiyyatı tarixi kafedrasının professoru kimi fəaliyyət göstərmişdir.

Alim ”Mif və nağıl. Epik ənənədə janrlararası əlaqə” (1999), ”Azərbaycan mifologiyası” (2001), ”Azərbaycan atalar sözləri, xalq mahnıları və dramların poetikası” (2001), ”Folklor poetikası” (2001), ”Azərbaycan uşaq folkloru və poetikası” (2002), ”Mifologiya və folklorşünaslıq məsələləri” (2002), ”Şəki folkloru” (2002), ”Lütfəli kişidən folklor nümunələri” (2003), ”Mif, nağıl və əfsanə: Epik ənənədə janrlararası əlaqə” (2004), ”Azərbaycan türklərinin mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası)” (2011), ”Mifologiya - I. Mifogenez: rekonstruksiya, struktur, poetika” (2015), ”Mifologiya - II. Ritual-mifoloji rekonstruksiya problemləri” (2019), ”Nizami poeziyasında məkan, zaman və kəmiyyət vəhdəti” (2021), ”Azərbaycan”ın ”Gülüstan” dərdinin ”Heydərbabaya salam”ı (2025), ”Dünyanın özündən keçib zamanı içində yerləşdirən Bəxtiyar Vahabzadə” (2025) kimi 20-dən artıq monoqrafiyanın, xeyli sayda dərs vəsaiti və dərs proqramının, 700-dən artıq elmi-publisistik məqalə və məruzənin müəllifidir.

Professor Ramazan Qafarlı həmçinin Xalq şairi Bəxtiyar Vahabzadənin 12 cildlik külliyyatının (Bakı, 2008-2010) tərtibçisi və elmi redaktorudur. AMEA Ədəbiyyat İnstitutunun hazırladığı 6 cildlik ”Azərbaycan ədəbiyyatı tarixi”nin (Bakı, Elm, 2004, ”Uşaq folkloru”, ”Xalq dramları”, ”Xalq mahnıları” bölümləri) müəlliflərindən biridir. Bəzi əsərləri xarici ölkələrdə nəşr edilmişdir.

Ramazan Qafarlı xüsusilə Azərbaycan mifologiyasına dəyərli əsərlər bəxş etmişdir. ”Mif və nağıl. Epik ənənədə janrlararası əlaqə” adlı əsəri 2004-cü ildə nəşr edilmişdir. Monoqrafiyada Azərbaycan türklərinin mifologiyası, nağıllar, əfsanə və rəvayətlər təhlil olunmuş, mif-ritual sintezinin folklorun epik ənənəsinə təsiri, janrlararası əlaqənin prinsipləri göstərilmişdir. Mif, nağıl və əfsanənin janrlaşmasında poetik vasitələrin rolundan bəhs olunmuş, xalqımızın soykökü ilə bağlı bir çox vacib məqamlar araşdırılmışdır. Azərbaycan türklərinin mifoloji mətn modellərinin ilkin qaynaqlarına müraciət edilmişdir. Burada nağılların süjet quruluşundan, nağıl və əfsanələrin spesifik janr xüsusiyyətlərindən, onlar arasındakı sərhədlərin aydınlaşdırılmasından geniş bəhs edilmişdir. Ramazan Qafarlının ”Mif və nağıl. Epik ənənədə janrlararası əlaqə” adlı monoqrafiyasına böyük dəyər verən Xalq şairi Bəxtiyar Vahabzadə həmin araşdırmanın sanballı və son dərəcə gərəkli tədqiqat olduğunu göstərmişdir. Onun ”Mifologiya - II cild. Ritual-mifoloji dünya modeli” kitabında yazdığı ”Kökümüzə gedən yolu tikanlardan təmizləyək” adlı ön sözdə Ramazan Qafarlının əməyi lazımınca qiymətləndirilmiş, müəllifin vətənə, millətə sonsuz bağlılığı göstərilmişdir. Ramazan Qafarlının xalq psixologiyasına, xalqın inanclarına, adət-ənənələrinə dərindən bələd olduğunu vurğulayan Xalq şairimiz belə araşdırmaların Azərbaycan türklərinə ana südü, hava, su kimi gərəkli olduğunu göstərərək yazır ki, mətbuatda kəskin yazıları ilə tanınmış müəllifin vətəndaşlıq mövqeyi, milliliyi, dərin və hərtərəfli biliyi, elmiliyi diqqətimi çəkdi. Ancaq vətənini, xalqını, insanlığı böyük məhəbbətlə sevən bir şəxs bu cür yazmağa qadir olardı... *(B.Vahabzadə. Ön söz. Kökümüzə gedən yolu tikanlardan təmizləyək // R.Qafarlı. Mifologiya, İİ cild. Bakı, Elm və təhsil, 2019, s.5).*

Ramazan Qafarlı mifologiyanın tədqiqat tarixini, onun nəzəri-kateqorial aspektlərini, mifogenezis, arxetipik simvolları, struktur poetikada mifoloji amilləri, struktur təhlil sistemlərinin əsas kateqoriyalarını, o cümlədən mifik düşüncənin genetik strukturunu sistemli şəkildə araşdırmışdır. Müəllif mifoloji düşüncənin inkişaf dinamikasını izləmiş, problemi nəzəri-metodoloji kontekstdə ətraflı araşdıraraq mif və romantik düşüncə kodlarını, mifogenezisin strukturunu və poetikasını, arxetiplər nəzəriyyəsini, mətnin struktur poetikasını, onun tipologiyasını, kateqorial sistemlərini tədqiqata cəlb etmişdir. Belə araşdırmalarında alim struktur təhlil predmetinin və prosesinin əsas kateqoriyalarını, bədii mətnin təhlil aspektlərini, struktur təhlil sistemlərinin əsas kateqoriyalarını və terminlərini (arxetip, element, motiv, funksiya, rəvayət, əfsanə, leqenda, trikster və s.) də geniş şəkildə tədqiq etməyə müvəffəq olmuşdur. Mifik düşüncənin struktur səviyyələrini - totemizm, animizm, animatizm, antropomorfizm, magik, fetişist və kultçuluq mifoloji düşüncə səviyyələrini araşdırmaya cəlb edən müəllif, müxtəlif kultları araşdırmaqla sakral mifoloji düşüncə atributlarına, sakral məkan və zaman, mifoloji kontinium (məkan-zaman vəhdəti) məsələlərinə, mifoloji Dünya modelinin kəmiyyət strukturuna - sayların sakrallığına, rənglərin simvolikasına və digər önəmli məsələlərə diqqət yetirmişdir. Həmçinin alim Azərbaycan türklərinin sakral düşüncə atributlarını, qədim bədii yaradıcılıq formalarının bir-birilə qarşılıqlı əlaqələrini - mif-ritual sintezinin dinlə, əfsanələrlə, nağıllarla qarşılaşdırmalı müqayisəsini, eyni zamanda mifologiyanın bir sıra nəzəri məsələlərini, özünəməxsus spesifik xüsusiyyətlərini, bəzi arxetiplərin yaranma yollarını, mənşəyini, ritual-mifoloji rekonstruksiya problemlərini geniş şəkildə təhlil etmişdir.

Ramazan Qafarlı ”Azərbaycan türklərinin mifologiyası” əsərində mifin qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası məsələlərini araşdırmış, qoyulan problemi əsasən dörd mühüm istiqamət üzrə tədqiq etmişdir:

*”1. Mifoloji düşüncə sisteminin poetik strukturu və Azərbaycan -türk mifoloji dünya modelinin rekonstruksiya problemləri.*

*2. Mifoloji düşüncənin genetik strukturu.*

*3. Mifoloji dünya modelinin təkamülünün struktur mərhələləri.*

*4. Azərbaycan-türk miflərinin tematik-klassifikativ strukturu” (S.Rzasoy. Ön söz. Azərbaycan mifoloji düşüncə tarixi Ramazan Qafarlının baxışlar sistemində // Ramazan Q. Azərbaycan türklərinin mifologiyası. Bakı, ADPU, 2011, s.7).*

Ramazan Qafarlı Azərbaycanda uşaq folklorunun toplanması, təsnifatlandırılması və araşdırılması sahəsində də öz sözünü demişdir. Uşaq folkloru nümunələrinin xalq arasından toplanması, tərtibi və nəşri məsələsində professorun böyük əməyi vardır. O, bu mövzu ilə bağlı ”Uşaq folklorunun janr sistemi və poetikası” adlı monoqrafiyanın müəllifidir. Bu kitab Azərbaycanda uşaq folkloru haqqında yazılan mükəmməl tədqiqat əsəri hesab edilir. Monoqrafiyada Azərbaycan uşaq folklorunun nəzəri əsaslarından, mənşəyi və yaranma yollarından, örnəklərin toplanması, nəşri və araşdırılması tarixindən ətraflı bəhs edilir. Kitabda həmçinin uşaq folkloru örnəklərinin lirik, epik, dramatik növlərinin poetikasından, ideya məzmunundan, uşaq nəğmələrinin - düzgülərin, sanamaların, eyni zamanda tapmaca, nağıl, oyun və tamaşaların spesifik xüsusiyyətlərindən sistemli şəkildə bəhs edilir. Monoqrafiyada mövzular iki bölmə üzrə qruplaşdırılmış, ümumilikdə yeddi fəsli əhatə etmişdir. I bölmədə Azərbaycanda uşaq folklorunun mənşəyi, yaranma yolları, tədqiqat tarixi və təsnifatı məsələləri öyrənilmişdir. Bu bölməyə üç fəsil daxil edilmişdir. Müəllif bu fəsillərdə uşaq folkloru örnəklərinin yaranma zərurətinin qədim inanclarımızla bağlılığını göstərmiş, dünyaya övladın gəlişi, körpənin qırxının tökülməsi, dilinin açılması, dişinin çıxması, yeriməsi, adının qoyulması ilə bağlı keçirilən mərasimlərdə tilsimdən, dualardan və əfsunlardan istifadə edildiyini qeyd etmişdir. II bölmədə uşaq folklorunun janr sistemi araşdırılmışdır. ”Uşaq psixologiyasına yaxından bələd olan Ramazan Qafarlı uşaqların yaratdığı mətnlərdə dinamikliyin və dəyişkənliyin əsas xüsusiyyət olduğunu qeyd edir, qısa və yığcamlığını, təkrarlardan tez-tez istifadə edildiyini vurğulayır. O göstərir ki, uşaqlar formaya aludə olur, ritm, ahəng əmələ gətirən bütöv qafiyələr tapırlar. Heca vəzninin ən oynaq ölçülərindən istifadə edirlər. Bir sıra uşaq yaradıcılığı nümunələri poetik strukturuna görə hətta böyüklərin düzüb-qoşduğu ən bitkin əsərlərlə müqayisə edilə bilər” *(Kərimova X. Ramazan Qafarlının elmi fəaliyyətində Azərbaycan uşaq folklorunun aktual problemlərinin tədqiqi // Ziyalı işığında. Ramazan Qafarlı - 70. Bakı, 2021, s.394.).*

Ramazan Qafarlı uşaq folklorunun janr təsnifatını apararkən uşaqların yaş həddi ilə əlaqəli məqamlardan, onların yaş xüsusiyyətlərindən, uşaq folkloru örnəklərinin oyunlarla əlaqəsindən, onların yaranma və ifa prosesində balacaların iştirakı və rolundan, mövzuların daha çox quşlar, heyvanlar, yaxud təbiət hadisələrilə əlaqəli olmasından, balacaların zövq və marağından, nümunələrin dil və üslub xüsusiyyətlərindən, mətnlərin həcmi və digər məsələlərdən ətraflı bəhs etmişdir.

Ramazan Qafarlı uşaq folkloru örnəklərinin özünəməxsus xüsusiyyətlərini tədqiq edərkən nümunələrin forma, struktur oxşarlığını, mətnlərin mövzusu, onların müəyyən ritmlə, musiqi ilə bağlılığı məsələlərinə də toxunmuşdur. Müəllif uşaq folklorunun lirik janrlarını əsasən 5 mühüm xüsusiyyətinə görə qruplaşdırdığını qeyd etmişdir:

- Oxşar forma, struktur və poetik sistemə malik olması;
- Mövzu eyniliyi və məzmun yaxınlığı;
- Xalq məişətinin, əmək peşələrinin eyni sahəsinə tətbiqi;
- İfa tərzi;
- Funksiyası (*R.Qafarlı. Uşaq folklorunun janr sistemi və poetikası. Bakı: Elm və təhsil, 2013, s. 127).*

Müəllif uşaq folklorunun lirik növə aid etdiyi janrları yaradıcısına və ifaçısına görə iki qismə ayırır: 1) Analar tərəfindən yaradılan və ifa olunanlar: laylalar, oxşamalar, dilaçmalar və öyrətmələr. Bu mətnləri müəllif şərti olaraq ”ana nəğmələri” adlandırır; 2) Uşaqlar tərəfindən yaradılan və ifa olunanlar: sanamalar, dolamalar, öcəşmələr və s.

Professor uşaq folklorunun janr sistemi və poetikasına həsr etdiyi sözügedən monoqrafiyada həmçinin uşaq oyunları ilə əlaqəli olan və oyunlarsız ifa edilən folklor örnəklərini də geniş təhlilə cəlb etmişdir.

Ramazan Qafarlının ”Nizami poeziyasında məkan, zaman və kəmiyyət vəhdəti (folklor-mifoloji düşüncə kontekstində)” adlı monoqrafiyası Azərbaycan elmində öz sanbalı ilə seçilən tədqiqatlardandır. Bu araşdırmada alim Nizami Gəncəvi yaradıcılığını mifoloji dünya modeli və folklor düşüncəsi baxımından tədqiq etmiş, maraqlı elmi qənaətlərə gəlmişdir. Professor Seyfəddin Rzasoy bu monoqrafiyanı yüksək qiymətləndirərək yazır: ”Monoqrafiya müəllifin, sadəcə növbəti əsərlərindən biri deyil, onun bütün yaradıcı ömrünün mahiyyətini, intellektual əyarını, Azərbaycan filoloji fikir məkanında məhz ona məxsus olan düşüncə paradiqmasının ədəbi-estetik, poetik-idraki özünəməxsusluqlarını əks etdirən ”tale kitabı”dır. Və bu taleyin Nizamiyə bağlanması təsadüfi olmayıb, yenə də Ramazan Qafarlının alim taleyinin içərisindədir. O, bütün ömrü boyu Nizamidən ayrı düşmədi. Zaman-zaman bu dahi sənətkarın yaradıcılığına qayıtdı, ən müxtəlif elmi janrlarda əsərlər yazdı” *(S.Rzasoy. Ön söz. Professor Ramazan Qafarlının yaradıcılığında ”Nizami və milli tale” diskursu // R.Qafarlı. Nizami poeziyasında məkan, zaman və kəmiyyət vəhdəti. Bakı: Elm və təhsil: 2021, s. 3).*

Monoqrafiyada Ramazan Qafarlı dünyanın ən dəyərli söz incilərindən hesab edilən ”Xəmsə”nin müəllifini həm poetik bir mətn yaradıcısı kimi təqdim etmiş, həm də onun mütəfəkkir şair olduğunu, ”mif-folklor-din-fəlsəfə-poeziya” məna xəttində birləşdiyini vurğulamışdır *(Rzasoy, 2021: 4).*

Ramazan Qafarlı həmçinin folklor toplayıcılığı sahəsində də fəaliyyət göstərmiş, ”Şəki folkloru” (2002), ”Lütfəli kişidən folklor nümunələri” (2003), ”Azərbaycan uşaq folkloru” (2011) və s. kitabların toplayıcısı və ya tərtibçisi olmuşdur. ”Şəki folkloru” toplusunda Molla Cümənin elm aləminə bəlli olmayan altı dastanını özü toplayaraq kitaba daxil etmişdir.

Alimin yaradıcılığında folklor və yazılı ədəbiyyat əlaqələrinin qarşılıqlı şəkildə araşdırılmasının da xüsusi yeri var. Ramazan Qafarlı bu mənada Nizami Gəncəvinin, Bəxtiyar Vahabzadənin, Məhəmmədhüseyn Şəhriyarın, Səməd Vurğunun yaradıcılığını folklor və mifoloji kontekstdə araşdıran tədqiqatçı kimi tanınır. Ramazan Qafarlının Azərbaycan ədəbiyyat və ədəbi düşüncə tarixinə baxışında onun vətənpərvər insan olduğu, xalqının dilinə, milli kimliyinə, mənəvi dəyərlərinə bağlılığını müşahidə etmək olur: ”Nəsiminin üsyankarlığı, Füzulinin həqiqətə, haqqa çağıran fəryadı, Nəvainin epik vüsəti, Xətainin haqqa tapınması ilə Dədə Qorqudun, Bilgə Kağanın, Yusif Balasaqunlunun, Mahmud Kaşğarlının və Nizaminin qoyduğu bünövrənin üzərində elə əzəmətli sənət zirvələri ucalmışdır ki, nəhayət, türkcə dünyanın bədii söz xəzinəsində özünə layiqli yer tutmuş, Şərq mədəniyyətində əsaslı şəkildə təsdiqini tapmışdır” *(R.Qafarlı. Nizami poeziyasında məkan, zaman və kəmiyyət vəhdəti. Bakı: Elm və təhsil, 2021 s. 41).*

Alimin fəaliyyəti təkcə Azərbaycan sərhədləri daxilində məhdudlaşmır. Ramazan Qafarlı beynəlxalq elmi mühitdə də öz sözünü demiş alimlərdəndir. Onun əsərlərində türk mifoloji düşüncəsi, epik qəhrəman modeli, milli kimlik və mənəvi yaddaş məsələləri geniş şəkildə tədqiq edilir, əsərlərinin bir hissəsi xarici ölkələrdə - Türkiyədə, Rusiyada, İraqda çap olunmuşdur. Bu mənada 2012-ci ildə Sankt-Peterburqda nəşr edilmiş ”Философийа лйубви на деревнем Востоке и Низами” (”Şərqdə məhəbbət fəlsəfəsi və Nizami”) adlı monoqrafiyasını və sanballı elmi dərgilərdə çap edilən saysız məqalələrini örnək göstərə bilərik.

Professor Ramazan Qafarlının ssenarisi əsasında Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr edilmiş ”Xanım, hey” bədii filmi; xalq etnoqrafiyasından bəhs edən ”Laylalar” bədii-etnoqrafik filmi lentə alınmışdır. Professor müxtəlif illərdə ”Ərən”, ”Xəmsə” qəzetlərinin, ”Qafqaz”, ”Xəmsə” dərgilərinin təsisçisi və baş redaktoru olmuşdur, 2015-ci ildən bu günədək ”Dədə Qorqud” elmi-ədəbi toplusunun baş redaktorudur. Professor həm də folklor və mifologiya sahəsində orijinallığı ilə tanınan Mifologiya.az internet saytının müəllifidir.

Ramazan Qafarlı müasir Azərbaycan və türk dünyası folklorşünaslığında epik düşüncə və mifopoetik sistemin araşdırıcılarından biri kimi dəfələrlə müxtəlif beynəlxalq elmi simpozium və konfranslara qatılaraq ölkəmizi təmsil etmişdir. Türkiyə, Rusiya, İraq, Şimali Makedoniya, Birləşmiş Ərəb Əmirlikləri və b. ölkələrdəki tədbirlərdə ”Türk dünyası folklor sistemində iki metodolojik yön: Türkiyə və Azərbaycan folklor məktəblərinin (okullarının) sinergetik analizi”; ”Metin Ekici ve Türkiyat biliminin çağdaş yönleri: ilim ve ruhun entegrasyonu”; ”Dede Korkut”ta mekan arayışları: ”Dede Korkut araştırmaları platformasının gerçekleştirilmesi”, ”Dede Korkut kitabı: tarihi nüshalardan dijital platformlara Türk epik mirasının dönüşümü”, ”Kərkük-Mosul və Azərbaycan-Türk folkloru: mifoloji, arxetipik, funksional, semiotik və sinergetik aspektlərdə Ata Tərzibaşinin irsi (müqayisəli analiz)”; ”Türk dastanlarının semiotik arxetipləri və sinergetik inkişaf dinamikası: Balkan dastanları ilə müqayisəli təhlil” və s. adlı məruzələri öz mövzusunun aktuallığı ilə seçilmişdir.

2023-cü ildə Türkiyənin Ankara şəhərində keçirilmiş ”X Milletlerarası Türk Halk Kültürü” konfransında professor Ramazan Qafarlı türk mədəniyyətinin zənginləşdirilməsi, qorunması və gələcək nəsillərə ötürülməsi naminə apardığı tədqiqat və təbliğatlar və ümumən türk dünyasının elm və mədəniyyət sahəsində göstərdiyi xidmətlərə görə ”Türkiyə Cümhuriyyət Bayrağı” mükafatı ilə təltif edilmişdir. Mükafatı professora Türkiyə Cümhuriyyətinin Birinci xanımı Emine Erdoğan şəxsən özü təqdim etmişdir.

Ramazan Qafarlının məhsuldar elmi fəaliyyəti ölkəmizdə də diqqətdən kənarda qalmamış, yüksək səviyyədə dəyərləndirilmişdir. 2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvi irsinin tədqiqi və təbliği sahəsində göstərdiyi elmi fəaliyyətə görə AMEA-nın Fəxri Fərmanı ilə, 2025-ci ildə isə Azərbaycan folklorşünaslığına və Azərbaycan elminə verdiyi töhfələrə görə ölkə başçısı Prezident İlham Əliyevin sərəncamı ilə ”Tərəqqi” medalı ilə təltif edilmişdir.

Ramazan Qafarlı hazırda AMEA Folklor İnstitutunda elmi fəaliyyətini davam etdirir, ”Dədə Qorqud” şöbəsinin müdiridir. Şöbədə hazırlanan ”Dədə Qorqud” elmi-ədəbi toplusunun baş redaktoru olaraq qorqudşünaslıq istiqamətində görülən işlərin, yeni elmi qənaətlərin ictimaiyyətə çatdırılmasında məsuliyyət onun üzərindədir. Şöbədə ”Kitabi-Dədə Qorqud” abidəsində aparılan, dastanın müxtəlif aspektlərdən öryənilməsinə aid işlər onun rəhbərliyi altında icra edilir.

Ramazan Qafarlı bu gün də elm sahəsində böyük maraq və həvəslə fəaliyyət göstərir, yeni elmi araşdırmalar üzərində çalışır. Son illərdə Ramazan Qafarlının rəhbərliyi altında onlarla gənc tədqiqatçı yetişmişdir. Gənc doktorant və alimlərə verdiyi tövsiyə və məsləhətləri ilə seçilən professor müxtəlif mövzulu elmi araşdırmalara istiqamət verir, Azərbaycan humanitar elminin inkişafına dəstək olur. Bütöv bir folklorşünaslar nəslinin - Xalidə Məmmədovanın, Səbinə İsayevanın, Sevinc Əliyevanın, Ulduz Mürşüdovanın, Leyla Nuriyevanın, Fərqanə Qurbanovanın və digərlərinin alim kimi yetişməsində onun müstəsna rolu vardır.

Alimin zəngin fəaliyyəti, milli-mənəvi dəyərlərin öyrənilməsi və təbliği sahəsindəki xidmətləri Azərbaycan humanitar elminin inkişafında dəyərli yerə sahibdir. Onun əsərləri təkcə folklorşünaslar üçün deyil, ümumilikdə türk mədəniyyəti, mifologiya və ədəbiyyat tarixi ilə məşğul olan tədqiqatçılar üçün mühüm elmi mənbə kimi əhəmiyyətlidir.

Bu günlərdə professor Ramazan Qafarlının anadan olmasının 75 ili tamam olur. Hörmətli professoru yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, can sağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq. İnanırıq ki, Ramazan müəllim yeni tədqiqatları ilə Azərbaycan elminə dəyərli töhfələr bəxş etməkdə davam edəcək.

**Aynurə SƏFƏROVA**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Xalidə MƏMMƏDOVA**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

# Neft şəhərinin qoynunda başlayan ömür

**1949-cu il iyulun 5-də Bakıda anadan olan Vaqif Yunus oğlu Kərimovun həyat və fəaliyyət yolu Azərbaycan neft sənayesi və geologiya elmi ilə sıx bağlıdır. Onun uşaqlıq və gənclik illəri neft sənayesinin ölkənin iqtisadi və ictimai həyatında mühüm yer tutduğu bir dövrə təsadüf etmişdir.**



Müharibədən sonrakı Bakıda neft buruqları, sənaye müəssisələri və liman şəhərin iqtisadi və ictimai həyatında mühüm yer tuturdu. Həmin mühitdə formalaşan Vaqif Kərimov sonradan geologiya sahəsini seçərək yerin dərinliklərinin öyrənilməsi, karbohidrogen ehtiyatlarının axtarışı və qiymətləndirilməsi ilə bağlı elmi fəaliyyətə istiqamətlənmişdir. Onun peşəkar fəaliyyətinin əsasları Bakı neft mühitinin və Azərbaycan geologiya məktəbinin formalaşdırdığı ənənələr üzərində qurulmuşdur.

Elmdə ilk ciddi addımlarını atdığı dövrdə onu düşündürən əsas sual sadə səslənsə də, cavabı son dərəcə mürəkkəb idi, yerin dərinliklərində nə qədər enerji gizlənir və insan onu necə daha ağıllı, daha dəqiq, daha məsuliyyətli şəkildə aşkar edə bilər?

Vaqif Kərimov 1975-ci ildə namizədlik dissertasiyasını müdafiə edir. 1983-cü ildə doktorluq işini tamamlayaraq geologiya-mineralogiya elmləri doktoru olur. Onu daha çox gələcək maraqlandırırdı. Böyük dərinliklərdə neft-qaz ehtiyatlarını necə proqnozlaşdırmaq olar? Mürəkkəb geoloji quruluşlarda perspektiv sahələri necə müəyyən etmək mümkündür? Qeyri-ənənəvi karbohidrogen mənbələri hansı elmi yanaşmalar tələb edir? Ən əsası isə geoloji qərarların riskini necə azaltmaq olar?

Karbohidrogen potensialının qiymətləndirilməsi, böyük dərinliklərin neft-qazlılığının proqnozlaşdırılması, qeyri-ənənəvi karbohidrogen xammalı mənbələrinin öyrənilməsi onun elmi fəaliyyətinin əsas istiqamətlərinə çevrildi. Bu tədqiqatlar yalnız nəzəri xarakter daşımırdı. Onlar yataqların daha səmərəli işlənməsinə, resurslardan rasional istifadəyə, geoloji kəşfiyyatın uzun və ortamüddətli planlaşdırılmasına xidmət edirdi.

Vaqif Kərimov 1998-2001-ci illərdə "Morneft" QSC-də geologiya və geofizika üzrə vitse-prezident kimi çalışır. Sonrakı illərdə "Saraktaş Neft və Qaz Kəşfiyyatı Dərin Qazma Ekspedisiyası" MMC-nin, daha sonra "Orenburq Neft və Qaz Kəşfiyyat Şirkəti" MMC-nin baş direktoru olur. Bu vəzifələrdə o, yalnız idarəçi kimi deyil, həm də mürəkkəb geoloji qərarların məsuliyyətini daşıyan alim-praktik kimi fəaliyyət göstərir.

Vaqif Kərimovun tədqiqatları yataqların axtarışı, kəşfiyyatı və işlənməsi prosesində geoloji risklərin azaldılmasına, perspektiv sahələrin daha dəqiq seçilməsinə və qərarların daha əsaslı verilməsinə imkan yaradırdı. Onun elmi fəaliyyətində xüsusi yer tutan istiqamətlərdən biri karbohidrogen sistemlərinin modelləşdirilməsi oldu.

Bir vaxtlar geoloq xəritə, kompas, sahə gündəliyi və nümunələrlə işləyirdisə, yeni dövrdə böyük məlumat bazaları, rəqəmsal modellər, geoflüid dinamikası və süni intellekt geoloji düşüncənin ayrılmaz hissəsinə çevrilirdi.

2009-cu ildən etibarən Vaqif Kərimov İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universitetində Neft və qaz axtarışı və kəşfiyyatının nəzəri əsasları kafedrasının müdiri kimi fəaliyyət göstərir. 2017-ci ildən Rusiya Dövlət Geoloji Kəşfiyyat Universitetində Geologiya və karbohidrogen yataqlarının kəşfiyyatı kafedrasına rəhbərlik etməsi, elmi işlər üzrə prorektor kimi çalışması onun alim, müəllim və təşkilatçı obrazını daha da genişləndirdi. Son illərdə onun təşəbbüsü ilə yaradılan "Karbohidrogen sistemlərinin modelləşdirilməsi" elmi-tədqiqat laboratoriyası, Rəqəmsal Texnologiyalar və Modelləşdirmə Elmi-Tədris Mərkəzi, Karbohidrogenlərin Geokimyası Tədris və Tədqiqat Laboratoriyası, Litologiya üzrə tədris və tədqiqat laboratoriyası müasir geologiya təhsilində yeni mərhələnin göstəricisi oldu.

Onun fikrincə, neft-qaz yataqlarının axtarışı və işlənməsi zamanı yaranan məlumat həcmi artıq yalnız insanın klassik üsullarla emal edə biləcəyi səviyyəni aşır. Süni intellekt planlaşdırma, optimallaşdırma, risklərin hesablanması, hasilatın idarə olunması və yatağın bütün həyat dövrünün təhlili üçün mühüm vasitəyə çevrilir.

Vaqif Kərimovun elmi fəaliyyətinin dövlət səviyyəsində əhəmiyyətini göstərən faktlardan biri 2021-ci illə bağlıdır. Uzaq Şərqin Arktika və subarktik dənizlərinin karbohidrogen potensialının öyrənilməsi üzrə onun tədqiqatlarının nəticələri Rusiya Elmlər Akademiyası tərəfindən ölkə prezidentinə və hökumətinə təqdim edilən "2035-ci ilə qədər Rusiya Federasiyasının Arktika zonasının inkişafı və milli təhlükəsizliyin təmin edilməsi strategiyası"nın materiallarına daxil edilmişdir. Bu, bir alimin elmi nəticələrinin yalnız akademik mühitdə deyil, enerji siyasətinin formalaşmasında da nəzərə alındığını göstərdi.

Onun rəhbərliyi və iştirakı ilə Şərqi Sibir, Arktika, Ural, Xəzər dənizi, Uzaq Şərq, Kamçatka və başqa regionların karbohidrogen potensialının qiymətləndirilməsi üzrə geniş tədqiqatlar aparılmışdır. Bu işlər neft-qaz ehtiyatlarının müəyyənləşdirilməsi, perspektiv sahələrin seçilməsi və geoloji planlaşdırma baxımından praktik əhəmiyyət daşımışdır.

Vaqif Kərimovun Azərbaycanla bağlı düşüncələri hər zaman səmimi və emosional olmuşdur. Azərbaycan onun üçün yalnız doğulduğu ölkə deyildi. Bura onun peşəkar kimliyinin, elmi baxışının, geoloq kimi dünyaya münasibətinin formalaşdığı məkan idi. O, Azərbaycanı dünya neft sənayesinin beşiklərindən biri hesab edir, burada yaradılan təcrübənin qlobal neft-qaz elminin inkişafına təsir göstərdiyini vurğulayırdı.

Vaqif Kərimov elmi təşkilatlanma prosesində də uzun illər fəal iştirak etmişdir. O, Rusiya Elmlər Akademiyasının Geologiya, geofizika və karbohidrogen emalı problemləri üzrə elmi şurasının üzvü olmuş, 2021-ci ildən Rusiya Federasiyasının Energetika Nazirliyi yanında İctimai Şurada, 2024-cü ildən isə Yerin təkindən istifadə üzrə Federal Agentlik - Rosnedra nəzdində İctimai Şurada fəaliyyət göstərmişdir. Bu platformalarda onun təcrübəsi və elmi baxışı strateji müzakirələrə daxil olmuşdur.

Alimin elmi məhsuldarlığı da ayrıca diqqətə layiqdir. Vaqif Kərimov 400-dən çox elmi məqalənin, 37 monoqrafiya və dərsliyin müəllifidir. "Neft və qaz laylarının maye dinamikası", "Hərəkətli kəmərlərin neft və qaz tərkibinin geoflüid dinamikası", "Geoflüid təzyiqləri və onların neft-qaz yataqlarının axtarışında və kəşfiyyatında rolu", "Şelf, onun tədqiqi və neft-qaz yataqlarının axtarışı üçün əhəmiyyəti", "Dünya okeanının sularında karbohidrogen yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı", "Mürəkkəb geoloji quruluşa malik rayonlarda neft və qaz tərkibinin proqnozlaşdırılması", "Rusiya dənizlərinin və ona bitişik suların neft-qazlı vilayətləri", "Bərpa olunan və qeyri-ənənəvi enerji" kimi əsərləri onun elmi maraqlarının miqyasını göstərir.

Onun elmi rəhbərliyi ilə geologiya sahəsində 42 elmlər namizədi hazırlanmış, mindən çox yüksəkixtisaslı mütəxəssis yetişmişdir. Bu insanlar müxtəlif universitetlərdə, elmi-tədqiqat institutlarında, neft və qaz şirkətlərində çalışır, müəllimlərinin yanaşmasını davam etdirirlər.

Vaqif Kərimovun müəllifi olduğu tədris proqramları və dərsliklər də yeni nəslin hazırlanmasında mühüm rol oynamışdır. "Neft və qazın kəşfiyyatının nəzəri əsasları", "Neft və qazın kəşfiyyatının layihələndirilməsi", "Neft və Rusiyanın qaz əyalətləri və regionları", "Karbohidrogen sistemlərinin və neft-qaz yataqlarının modelləşdirilməsi", "Endogen təbii fəlakətlər" kimi əsərləri tələbələr, magistrlər, doktorantlar və mühəndislər üçün yalnız dərslik deyil, mürəkkəb geoloji prosesləri sistemli şəkildə anlamaq vasitəsi olmuşdur.

Alim uzun illər elm, təhsil və geoloji kəşfiyyat sahəsində göstərdiyi xidmətlər dövlət və elmi qurumlar tərəfindən dəfələrlə qiymətləndirilmişdir. O, "Rəşadətli əməyə görə" medalı, Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanları, Qırmızı Əmək Bayrağı ordeni, Vyetnam Sosialist Respublikasının "Dostluq" medalı, Rusiya Elmlər Akademiyasının İ.M. Qubkin adına mükafatı, Rusiya Elm və Ali Təhsil Nazirliyinin "Rusiya Federasiyasının Əməkdar Elm və Yüksək Texnologiyalar Xadimi" medalı, Rusiya Federasiyası Təhsil və Elm Nazirliyinin "Elmi və texnoloji inkişaf sahəsində dövlət siyasətinin həyata keçirilməsinə töhfəyə görə" medalı, V.İ. Vernadski adına medal, Rusiya Mədən Elmləri Akademiyasının qızıl medalı, Rusiya Federasiyası Prezidentinin Fəxri Fərmanı və digər təltiflərə layiq görülmüşdür. Həmçinin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladığı fərmanla akademik alim "Rusiya Federasiyasının Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Vaqif Kərimovun həyatı elmə və təhsilə həsr olunmuş ömürdür. Bu ömür bir alimin şəxsi uğur hekayəsi olmaqla yanaşı, Bakı neft məktəbinin davamı, geologiyanın klassik ənənələri ilə rəqəmsal gələcəyi arasında qurulan körpü, müəllimlik məsuliyyəti ilə elmi axtarışın birləşdiyi nümunədir.

**Rəqsanə ƏSGƏROVA**
**yer elmləri üzrə fəlsəfə doktoru**

# Manna tarixinin tanınmış tədqiqatçısı Solmaz Qaşqayın 90 illik yubileyinə həsr edilmiş dəyirmi masa

**AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda Azərbaycan tarix elminin görkəmli nümayəndələrindən biri, Manna tarixinin tanınmış tədqiqatçısı Solmaz Qaşqayın anadan olmasının 90 illiyinə həsr edilmiş dəyirmi masa keçirilib.**




